AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

TƏHSİL İNSTİTUTU
Azərbaycan Respublikasının Təhsil İnstitutu

**İxtisasın adı: Tərbiyəçi-müəllim (məktəbəqədər)**



# AİLƏLƏRLƏ İŞİN HƏYATA KEÇİRİLMƏSİ

**Bakı 2020**

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək" (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və ali təhsil səviyyəsində müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəlliflər:** Şəhla Əliyeva, Svetlana Mustafayeva, Xalidə Həmidova

**Modul üzrə məsləhətçi:** Aynur Kərimova

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT

**ƏSAS ANLAYIŞLAR** ..... 6
**GİRİŞ** ..... 8
**MODULUN SPESİFİKASİYASI** ..... 9
**TƏLİM NƏTİCƏSİ 1: İNKİŞAFI DƏSTƏKLƏMƏK ÜÇÜN AİLƏLƏRLƏ QARŞILIQLI ƏMƏKDAŞLIQ QURMAQ** ..... 11
1.1. Ailələrlə iş xüsusiyyətlərini müəyyənləşdirir ..... 12
Tələbələr üçün fəaliyyətlər ..... 20
Qiymətləndirmə ..... 23
1.2. Ailələrlə səmərəli əməkdaşlıq metodlarını seçir ..... 24
Tələbələr üçün fəaliyyətlər ..... 31
Qiymətləndirmə ..... 33
1.3. Ailə üzvlərini tədris prosesinə cəlb etmək üçün formal və qeyri-formal metodlardan istifadə edir ..... 34
Tələbələr üçün fəaliyyətlər ..... 40
Qiymətləndirmə ..... 42
1.4. Resursların hazırlanması üçün ailələrdən səmərəli istifadə edir ..... 43
Tələbələr üçün fəaliyyətlər ..... 49
Qiymətləndirmə ..... 50
1.5 Ev şəraitində inkişafetdirici mühitin yaradılmasını təmin etmək üçün ailə üzvlərinə faydalı məlumat və təkliflər verir ..... 51
Tələbələr üçün fəaliyyətlər ..... 54
Qiymətləndirmə ..... 55
**CAVABLAR** ..... 56
**ƏDƏBİYYAT SİYAHISI** ..... 57

## ƏSAS ANLAYIŞLAR

**0-3 yaşlı uşaqlar üçün inkişaf və təlim mühiti –** uşağın inkişafı və böyüməsi üçün maksimal şəraitin yaradılması.

**Dəyərləndirmə –** dəyərləndirmə toplanmış məlumatların təhlili və nəticələrin çıxarılması prosesi. Dəyərləndirmə uşağın əldə etdiyi irəliləyişi müəyyən etmək üçün toplanmış məlumatlar barədə mühakimə yürütməkdən və həmin məlumatları şərh etməkdən ibarətdir.

**Dəyərlər –** şəxsiyyəti şərtləndirən keyfiyyətlər.

**Diferensiallaşdırma –** uşaqların fərdi xüsusiyyətlərinin, maraq və tələbatlarının, fiziki və əqli inkişaf səviyyələrinin, psixo-fizioloji xüsusiyyətləri nəzərə alınmaqla təlimin təşkil olunması.

**Erkən dövr inkişaf və təlim kurikulumu –** uşaqların erkən (0-3 yaş) dövr inkişaf və təliminin son məqsədlərini, həmin məqsədlərə çatmaq üçün müəyyən edilən yol, forma və vasitələri, uşaq inkişafının və təliminin izlənilməsini və dəyərləndirilməsini, inkişaf səviyyəsini müəyyənləşdirmək mexanizmlərini özündə cəmləşdirən dövlət sənədi.

**Əməkdaşlıq –** “tərbiyəçi-uşaq”, “uşaq-uşaq”, “valideyn-tərbiyəçi”,“uşaq-valideyn” münasibətlərində qarşılıqlı fəaliyyətin təmin olunması.

**Fasilitasiya –** qrupda diskussiyanın təşkili, fəallaşdırılması, səmərəli yönəltmə prosesi, **fasilitator** isə **-** uşaq tərəfindən biliklərin əldə edilməsi prosesində bələdçi rolunu yerinə yetirən şəxsdir.

**Fəaliyyətin aparıcı növü –** uşaq həyatının bu dövründə uşağın inkişafına imkan yaradan ən yüksək dərəcəli fəaliyyət.

**İnkişaf sahələri –** uşaqların inkişaf sahələri üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsi.

**İnklüziv təhsil –** təhsilin hamı üçü əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşıdırlmasına əsaslanan inkişaf prosesidir. Bu, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını da təmin edir.

**Məktəbəqədər təhsil –** məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və mənəvi inkişafına xidmət edən, ilkin bilik, bacarıq və vərdişlərin mənimsənilməsinin formalaşdırılması prosesi.

**Məktəbəqədər təhsil müəssisəsi –** məktəbəqədər təhsilin dövlət standartlarına uyğun olaraq məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsini, əqli, fiziki, mənəvi inkişafını və məktəbəhazırlığını həyata keçirən təhsil müəssisəsi.

**Məktəbəqədər təhsildə qiymətləndirmə –** məktəbəqədər yaşlı uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və dəyərləndirilməsi prosesi.

**Məktəbəqədər təhsilin dövlət standartı –** uşaqların, ailənin, cəmiyyətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan, ölkədə məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsinə xidmət edən ümumi normalar məcmusu.

**Məktəbəqədər təhsilin kurikulumu –** təlim nəticələri və məzmun standartlarını, inkişaf sahələrini, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən konseptual dövlət sənədi.

**Məzmun standartı –** dövlətin təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyduğu dövlət tələbi.

**Motivasiya –** məşğələnin vacib komponenti olmaqla, uşaqların idrak fəallığına təkan verən proses.

**Nəticəyönümlülük –** fəaliyyətin əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında qurulması.

**Portfolio –** uşaq haqqında məlumatların və onun müəyyən müddət ərzində yerinə yetirdiyi işlərin toplandığı xüsusi qovluq.

**Resurslar –** məzmun standartlarının reallaşdırılmasında istifadə olunan təlim vasitələri.

**Şəxsiyyətyönümlü təlim prosesi –** əsasında fərdiliyin tanınması, hər bir insanın orijinallığı, dəyəri, onun hər şeydən əvvəl şəxsiyyət kimi inkişafı, özünün təkrarolunmaz subyektiv təcrübəsi dayanan təlim.

**Şəxsiyyətyönümlülük –** uşaqlara bütöv bir şəxsiyyət kimi yanaşmağı və onlarda həyat üçün lazım olan ən zəruri dəyərlərin formalaşdırılmasını vəzifə kimi qarşıya qoyan prinsip.

**Təhsildə inteqrasiya –** təlimin məzmun komponentlərinin əlaqələndirilməsini təmin edən didaktik prinsip.

**Təlim nəticəsi –** müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret səviyyəsi.

**Təlim strategiyası –** təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusu.

**Təlimin məzmunu –** uşaq şəxsiyyətinin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusu.

**Tərbiyəçi-müəllim –** uşaqların təlim-tərbiyəsini, hərtərəfli inkişafını, məktəbəhazırlıq təlimini təşkil edən və həyata keçirən, məktəbəqədər təhsil sahəsi üzrə ali və ya orta ixtisas təhsilli şəxs.

**Uşağın inkişafı –** uşağın hərəkətlərin, təfəkkürün, nitqin, qavrayış və ünsiyyətin mürəkkəb növlərini öyrəndiyi təşkil olunmuş və uzunmüddətli proses.

**Uşaq nailiyyətləri –** təlim zamanı uşaqların qazandıqları dəyərlər.

# GİRİŞ

Ailə sağlam cəmiyyət və güclü dövlətin təməlidir. Uşaqların tərbiyəsində mühüm yerlərdən birini də məktəbəqədər təhsil müəssisələrinin ailə ilə qarşılıqlı əlaqəsi tutur. Lakin hər ailə uşaqla qarşılıqlı təsir kompleksini tam şəkildə həyata keçirə bilmir, bunun isə səbəbləri müxtəlifdir; bəzi ailələr uşağa tərbiyə vermək istəmir, başqaları bunu bacarmır, digərləri bunun onlara nə üçün lazım olduğunu anlamırlar və s.. Hər bir halda məktəbəqədər təhsil müəssisələrinin peşəkar köməyi lazımdır.

Beləliklə, məktəbəqədər yaşlı uşağa çox yaxın olan iki tərəf – valideyn və pedaqoqlar, onu bir-biri ilə qarşılıqlı əlaqə olmadan tərbiyə etməyə cəhd edirlər. Bu isə müsbət nəticə vermir. Bu əməkdaşlığın qurulmasında təşəbbüskar, təhsil işinə və peşəkar hazırlığa malik olan, məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə nəzəri və praktik cəhətdən düzgün yanaşmağı bacaran pedaqoqlar iştirak etməlidir.

"Ailələrlə işin həyata keçirilməsi" modul spesifikasiyasında Təlim nəticəsi olaraq "İnkişafı dəstəkləmək üçün ailələrlə əməkdaşlıq qurmaq " proqramı çərçivəsində ailələrlə işin və əməkdsaşlığın xüsusiyyətləri ətraflı verilmiş, ailənin funksiyaları, tipləri və quruluşu göstərilmişdir. Modulda bu baxımdan ailələrlə qarşılıqlı fəaliyyətin təşkili, ailələrlə qarşılıqlı əlaqə və prinsiplərin maddələri öz əksini tapıb. Tələbələr üçün fəaliyyətlər və qiymətləndirmə bölmələrində ailələrlə səmərəli əməkdaşlıq metodlarının təşkili, ailə, müəssisə və ictimaiyyətlə əlaqə formaları işlənmişdir. Bu modul bir təlim nəticəsi və beş qiymətləndirmə meyarından ibarətdir.

Modulda göstərilir ki, ailə ilə həyata keçirilən işləri ənənəvi və qeyri-ənənəvi formalara bölmək olar. Ailə və uşaq bağçası, xronoloji sırada ardıcıllıq forması ilə bağlıdır, bu isə, uşaqların təlim və tərbiyəsinin vəhdətini təmin edir. Müasir məktəbəqədər təhsil müəssisələrinin ailə ilə qarşılıqlı təsirinin yeni prinsip və tövsiyələri mənimsənilməlidir.

Təcrübə göstərir ki, uşaq bağçası və ailənin işində əlaqə və ardıcıllığın tam mənada həyata keçirilməsi bu tövsiyələrin reallaşdırılması zamanı mümkündür. Bu modulu bitirən təhsil alan planlı tədqiqatçılıq səriştəsi nümayiş etdirməlidir. Onlar ən azı uşaq bağçası, ailənin tədqiq olunması metodları, məktəbəqədər təhsil müəssisələri və uşağın yaxınlarının qarşılıqlı təsir formaları, məktəbəqədər müəssisə və ailənin müştərək fəaliyyət sahələri, qəyyumluq şurası haqqında nəzəri biliklərə malik olmalıdırlar.

Əziz təhsilalanlar! Unutmayın ki, gələcək işinizin yüksək səviyyədə qurulmasının açarı sizə verilən materialların həm nəzəri, həm də praktik mənimsənilməsindən çox asılıdır.

# MODULUN SPESİFİKASİYASI

| **Modulun adı:** | Ailələrlə işin həyata keçirilməsi |
|---|---|
| **Modulun kodu:** | SS-2020-07 |
| **Modulun ümumi məqsədi:** | *Bu modulu tamamladıqdan sonra tələbə ailələrlə səmərəli əməkdaşlıq metodlarını müəyyən edərək və uşağın sağlamlıq vəziyyətinə uyğun olaraq onun inkişafını dəstəkləmək üçün ailələrlə qarşılıqlı əməkdaşlıq qurmağı bacaracaqdıq.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. İnkişafı dəstəkləmək üçün ailələrlə qarşılıqlı əməkdaşlıq qurmaq | ➢ Ailələrlə iş xüsusiyyətlərini müəyyən edir;<br>➢ Ailələrlə səmərəli əməkdaşlıq metodlarını seçir;<br>➢ Ailə üzvlərini tədris prosesinə cəlb etmək üçün formal və qeyri-formal metodlardan istifadə edir;<br>➢ Resursların hazırlanması üçün ailələrdən səmərəli istifadə edir;<br>➢ Ev şəraitində inkişafetdirici mühitin yaradılmasını təmin etmək üçün ailə üzvlərinə faydalı məlumat və təkliflər verir. |

# TƏLİM NƏTİCƏSİ 1

## İNKİŞAFI DƏSTƏKLƏMƏK ÜÇÜN AİLƏLƏRLƏ QARŞILIQLI ƏMƏKDAŞLIQ QURMAQ

## 1.1. Ailələrlə iş xüsusiyyətlərini müəyyənləşdirir

### Əməkdaşlığın xüsusiyyətləri

Məktəbəqədər təhsil müəssisələrinin ən mühüm vəzifələrindən biri ailə ilə birlikdə qarşılıqlı əlaqədə uşağın hərtərəfli inkişafını təmin etməkdir. Bu işdə valideynlərin təşəbbüsü daha çox olmalıdır. Tərbiyəçilər valideynləri cəlb etmək üçün müxtəlif yol və üsullardan istifadə etməlidirlər. Bu işi bir neçə istiqamətdə təşkil etmək olar. Təlim prosesinə valideynləri cəlb etmək, onların bacarıqlarından səmərəli istifadə etmək, daim könüllü əməkdaşlığa sövq etmək, müxtəlif müzakirələrə dəvət edərək onların fikirlərindən faydalanmaq lazımdır. Tərbiyəçi öz qrupunda olan uşaqların valideynlərini yaxından tanımalı, onların fərdi xüsusiyyətlərini bilməlidir. Hər bir valideynin müsbət keyfiyyətlərindən uşaqların inkişafı üçün istifadə etməyi bacarmalıdır. Marağı olmayan valideynləri maarifləndirərək məktəbəqədər təhsil müəssisəsinə cəlb etmək lazımdır.

Bu öhdəliklər aşağıdakılardan ibarətdir:

- Hər bir mərhələdə real qərarların qəbul edilməsi prosesində iştirak etmək, yəni problemlərin müəyyənləşdirilməsi, işin nə dərəcədə praktik olub-olmamasının öyrənilməsi, planlaşdırılması, həyata keçirilməsi və dəyərləndirilməsi;
- Tərəfdaşlardan biri kimi, təhsil sahəsində xidmətin həyata keçirilməsində iştirak etmək;
- Resurs, material və əmək qüvvəsini təmin etməklə prosesə cəlb olunması;
- İştirak etmə və informasiya qəbul etməklə (məsələn, valideyn iclaslarında) cəlb olunması, passiv qəbula işarə etməklə prosesdə iştirak etməsi.

Əməkdaşlıq eyni fəaliyyət növündə iştirak etmək deməkdir. Lakin hamının bu prosesdə iştirakının bərabərliyi vacib deyil. Əməkdaşlıq dedikdə, daha fəal və öhdəlikli cəlb olunma nəzərdə tutulur.

**Əməkdaşlığın vacibliyinin səbəbləri.** Hər bir əməkdaşlıqda hər bir tərəfdaşın təbii ki, müəyyən maraqları və onları şərtləndirən səbəbləri olur. Bir çox hallarda əməkdaşlığa daxil olmaq üçün bir sıra vacib səbəbləri müəyyənləşdirmək mümkündür:

- Birgə təcrübə və səriştə - tərəfdaşlardan hər biri işin gedişində öz bilik və bacarıqlarından qarşılıqlı surətdə faydalana və istifadə edə bilər;
- Qarşılıqlı dəstək - iş şəraiti çətin olduqda, məhz əməkdaşlıq vasitəsilə qarşılıqlı dəstək nəticəsində qarşıya qoyulmuş məqsəd üçün bütün səylər göstərilir;
- İş bölgüsü - əməkdaşlıq vasitəsilə tərəfdaşlar hər hansı bir işi, layihəni həyata keçirərkən öz səriştələrinə görə səylərini cəmləşdirə bilərlər. Bu halda heç də vacib deyildir ki, tərəflərdən hər ikisi eyni dərəcədə müəyyən sahədə daha çox səriştəli olsun. Belə olan təqdirdə birgə iş, layihənin birgə həlli və ümumi reallaşmasına kömək edir;
- Artırılmış resurslar - birgə işin gedişi, birgə layihənin icrası üçün hər bir tərəfdaş öz payı (iştirakı) ilə çıxış edəndə əldə olan resursların ümumi həcmi artır. Bu resurslar intellektual, mənəvi, maddi, eləcə də maliyyə resursu ola bilər;
- Artırılmış səmərəlilik - tərəfdaşlar birgə iş görərkən, hər birisi öz perspektivi ilə

çıxış edir. Onlar nəzərdə tutulan proqramların səmərəli həyata keçirilməsi yolunda yaranan çətinlik və maneələrin müəyyənləşdirilməsi və aradan qaldırılması işində bir-birinə kömək edirlər;

- Dəyərləndirmə və monitorinq - proqramların əhəmiyyətini və nəticələrini təsirinin dəyərləndirilməsi üzrə həyata keçirilən əməli işləridir. Bu yolla əldə olunmuş informasiya müəyyən layihələrin reallaşdırılması prosesində lazımi dəyişikliklərin aparılmasına və onların rolunun daha da gücləndirilməsində istifadə oluna bilər. Aparılan dəyərləndirmə və monitorinqlər əməkdaşlıq fəaliyyətlərinin nizamlanmasında, resurslardan daha səmərəli istifadə edilməsində və lazım olduqda, əlavə maliyyə və intellektual potensialın səfərbər edilməsi işində yardımcı ola bilər.

Əməkdaşlıqda uzunmüddətli öhdəliklər tələb olunur. Əməkdaşlıq qısa müddətə qurula bilməz. Buna görə də, inam onun ən vacib tərkib hissələrindəndir. Əməkdaşlıqda vacib şərtdir olan qarşılıqlı inam, aşağıdakılardan ibarətdir:

- Əməkdaşlıq aydın və qarşılıqlı surətdə qəbul edilmiş funksiyaların müəyyənləşdirilməsini tələb edir.
- Əməkdaşlar böyük və kiçik miqyaslı məsələlərə ciddi diqqət yönəltməlidirlər.
- Əməkdaşlar dəstəklənilməlidir. Bacarıq və qabiliyyətə qısa müddətdə yiyələnmək və onu inkişaf etdirmək olmaz, əməkdaşlıq öz-özünə yaranmır, bunu qarşılıqlı yaratmaq lazımdır. Valideynlər ünsiyyət tərəfdaşlarıdır, onlara verilən hər şey faydalı və maraqlı olmalıdır.

**Ailənin funksiyaları, tipləri və quruluşu**

Ailənin özünəməxsus funksiyaları vardır. Funksiya (funtio-latın sözüdür) sözünün mənası icra, fəaliyyət deməkdir. Ailənin funksiyaları dedikdə onun həyat fəaliyyətinin başlıca istiqamətləri nəzərdə tutulur. Bu baxımdan onun aşağıdakı funksiyalarını fərqləndirmək olar: reproduktiv, təsərrüfat-iqtisadi, tərbiyə, bərpaedici və s.

Ailənin funksiyaları qarşılıqlı əlaqədədir. Onlar, hər şeydən əvvəl, ailənin sosial mahiyyətini əks etdirir. Ailə cəmiyyətin sosial əsasıdır. O öz üzvlərinin müxtəlif tələbatı (şəxsi və ümumailə, yəni qrup) ilə yanaşı, cəmiyyətin bir sıra mühüm tələbatını- əhali artımı tələbatını yerinə yetirir. Bu isə ictimai tələbatdır. Ailənin funksiyaları məhz buradan irəli gəlir. Ailənin funksiyaları ictimai-tarixi xarakter daşıyır.

Ailənin sadə və mürəkkəb olmaqla iki başlıca tipi vardır. Demoqrafların qənaətincə, hazırda ən geniş yayılmış ailə tipi nuklear ailə sayılır.

Nuklear ailə sadə ailədir. Nuklear latınca nus-leus nüvə deməkdir. O, iki nəsildən ata, ana və uşaqlardan ibarət olur. Əgər uşaqlardan hər hansı biri evlənirsə (ərə gedirsə) və valideynləri ilə birlikdə yaşayırsa, bu vaxt ailənin tipi dəyişir, nuklear ailə mürəkkəb ailəyə çevrilir.

Mürəkkəb ailə üç və yaxud daha çox nəsildən - baba-nənə, ata-ana və uşaqlardan ibarətdir.

"Passiv valideyn" – daxili mövqeyə uyğundur "Sən pedaqoqsan, uşağı müşahidə

edirsən, bu sənin işindir və mənə ehtiyac yoxdur".

Problemlərdən qaçan - Mütəxəssislər (psixoloqlar, həkimlər, tərbiyəçilər) uşağın vəziyyəti ilə bağlı xüsusi klinikalara müraciət etməyi məsləhət görsələr belə valideyn onunla və onun uşağı ilə bağlı hər şeyin qaydasında olduğunu düşünür. Bu cür valideyn bəzi hallarda uşaq üçün kömək edə biləcək çox vacib tibbi məlumatları mütəxəssislərdən gizlədir.

Narazı valideyn - tərbiyəçilərin öz uşağına münasibətdə hərəkətlərini daim tənqid edən, bəzən yuxarı instansiyalarda araşdırma tələb edən valideyndir (Şəkil 1.1).



**Şəkil 1.1. Narazı valideyn**

Təkəbbürlü intellektual - tərbiyəçinin, mütəxəssisin fikrindən öz fikrini daha vacib hesab edən valideyndir. O, tərbiyəçiyə mənfi təsir göstərir, açıq münaqişəyə gedir, uşağa dair lazımi tövsiyələri yerinə yetirmir. Belə hallarda valideynlə daha rəsmi şəraitin yaradılması ilə neytrallaşdırıla bilər, bu zaman tövsiyələr verən mütəxəssisin əhəmiyyəti və rolu daha aydın olur.

- Valideyn liderdir - valideynlər təhsil prosesində iştirak edə biləcək liderlərdir, uşaq müəssisəsinin hər hansı bir işinin dəyərini görürlər.
- "Valideyn icraçıdır" - valideynlər əhəmiyyətli motivasiya şəraitində iştirak edən icraçılardır.
- Valideynlər kritik müşahidəçilərdir –maraqlanan, lakin mütəxəssislərin köməyi ilə problemləri həll etmək istəyən müşahidəçilərdir.

Bütün bunlar tərbiyəçiyə birgə tədbirlərin keçirilməsi zamanı valideynlərə fərqli yanaşma tapmağa kömək edəcək.

### Ailələrlə qarşılıqlı fəaliyyətinin təşkili

Ailələr ilə qarşılıqlı əlaqə uşağın şəxsiyyətinin formalaşması, ünsiyyəti, təhsildə nailiyyətləri və təhsilində maraqların inkişafı üçün ən vacib şərtlərdən biridir. Tərbiyəçi və valideynlərin əməkdaşlığı uşaqla daha yaxından tanış olmağa, fərqli mövqelərdən baxmağa və onun hərtərəfli harmonik inkişafına imkan verir.

Valideynlərin uşağın inkişaf prosesinə cəlb edilməsi problemi üç istiqamətdə həll olunur:

- Valideynlərin pedaqoji mədəniyyətinin artırılması;
- Valideynlərin məktəbəqədər fəaliyyətə cəlb edilməsi;
- Təcrübə mübadiləsi üzrə birgə iş (Şəkil 1.2);



**Şəkil 1.2. Valideynlərlə iş**

Qarşılıqlı fəaliyyətin əsas məqsədi valideynlərin pedaqoji prosesin fəal iştirakçıları olmasını təmin etmək və onlara uşaqın tərbiyə və təhsilində məsuliyyətli olmasına dəstək olmaqdır.

Bu məqsədə nail olmaq üçün aşağıda verilənlərə riayət edilməlidir:

- Hər bir uşağın ailəsi ilə əməkdaşlıq qurmaq;
- Uşaqların inkişaf və tərbiyəsi üçün ailənin və uşaq bağçasının cəhdlərini birləşdirmək;
- Qarşılıqlı anlaşma, ümumi maraqlar, ünsiyyətə müsbət münasibət,valideyn, uşaq və tərbiyəçi-müəllimlərin qarşılıqlı işinin dəstəkləməsini təmin etmək;
- Valideynlik sahəsində valideynlərin bacarıqlarını artırmaq;
- Valideynləri birgə fəaliyyətə, o cümlədən uşaq bağçasında iştirak etməyə cəlb etmək.

Ailələrlə birgə fəaliyyəti təşkil edərkən əsas prinsipləri müşahidə etmək lazımdır:

- Ailə üçün uşaq bağçasının açıqlığı (hər bir valideynin uşağın necə yaşadığını və inkişaf etdiyini bilmək və görmək imkanları);
- Müəllim və valideynlərin uşağın inkişafında əməkdaşlığı;
- Ailə və uşaq kollektivində şəxsiyyətin inkişafına vahid yanaşmalar təmin edən fəal inkişaf mühitinin yaradılması;
- Uşağın inkişafı və tərbiyəsi sahəsində ümumi və xüsusi problemlərin diaqnostikası.

Müəllimin əsas məqsədi uşağa peşəkar yardım etməklə onu dəyişdirmədən, onun tərbiyəsinin daha dolğun həyata keçirilməsində aşağıda verilən istiqamətlər üzrə ailəyə kömək etməkdir:

- Uşağın maraq və ehtiyaclarının inkişaf etdirilməsi;
- Valideynlər arasında vəzifə və öhdəliklərin bölüşdürülməsi;
- Ailədə müxtəlif nəsillər arasındakı əlaqələrdə açıqlığın dəstəklənməsi;
- Ailə həyatının inkişafı, ailə ənənələrinin formalaşması;
- Uşağın fərdiliyini anlama və qəbuletmə, ona inam və unikal bir insan kimi hörmət etməsi.

**Ailələr ilə qarşılıqlı əlaqə və prinsiplər**

Məktəbəqədər təhsil mühiti uşaqların tədqiqat aparmaları, fəaliyyətlə məşğul olmaları, ətraf mühitə dair öz anlayışlarını formalaşdırmaları, yaşıdları, həmçinin böyüklərlə əlaqə yaratmaları üçün imkan yaratmalıdır. Bu zaman təlim prosesinin səmərəliliyinin artırılması üçün fəaliyyətlər arasında balans olmalıdır. Erkən və məktəbəqədər təhsil dövrünün sonunda ailələr uşaqların gözlənilən təlim nəticələri haqqında müəyyən məlumata malik olmalıdırlar. Uşaqların əlverişli təlim nəticələrinə nail olunmasına təminat verilməsi məqsədilə məktəbəqədər təhsil müəssisəsi və ailələr əməkdaşlıq şəraitində işləməlidirlər. Uşaq bağçası ilə ailənin qarşılıqlı fəaliyyətinin əsas məqsədi–uşaq bağçasında uşaqların şəxsiyyətyönümlü inkişafını təmin edən zəruri şəraitin

yaradılması, təlim-tərbiyə sahəsində valideynlərin səriştəliliyinin artırılmasıdır. Uşağın ilk tərbiyəçisi kimi ailənin rolu erkən yaş dövründə ailə və məktəbəqədər müəssisə arasında tərəfdaşlıq münasibətlərinin qurulmasında mühüm faktordur. Tərəfdaşlıq və məsuliyyət uşaqların təhsili ilə bağlı qərarların qəbul edilməsində etimad və hörmət, bərabər hüququ nəzərdə tutur. Məktəbəqədər müəssisələrdə çalışan pedaqoji işçilərlə ailə arasında təlim-tərbiyə prosesinin ardıcıllığını və tamlığını təmin edə biləcək tərəfdaşlıq münasibətlərinin qurulması zəruridir

Valideynlər və tərbiyəçi-müəllimlər tərəfindən qoyulmuş səylər məlumat və təcrübə mübadiləsinə, həmçinin uşaqların inkişafı və təlimi üçün ən əlverişli şəraitin təmini məqsədilə əməkdaşlığa əsaslanmalıdır. Valideynlər məktəbəqədər müəssisənin simasında dəstək əldə etməlidir ki, özlərini müəllimlərlə əməkdaşlıq prosesində lazımlı hiss etsinlər, həmçinin uşaqların iştirakı ilə keçirilən fəaliyyətin istənilən növlərində iştirak etsinlər. Belə fəaliyyət çərçivəsində onlar aşağıdakılarla tanış olmalıdırlar:

- Uşağın yaşına məxsus xüsusiyyətləri ilə;
- Təlim-tərbiyə işinin mühümlüyü ilə;
- Uşaqlara təsir edən stimullaşdırıcı mühitin vacib rolu ilə;
- Fiziki, emosional və təhlükəsiz mühitin təmin olumasının zəruriliyi ilə;
- Erkən inkişaf və təlim işinin aparıldığı müəssisənin fəaliyyəti ilə.

Hər bir tərbiyəçi-müəllim bütün ailələri öz uşağının təliminə cəlb etmək üçün səmərəli strategiyalar yarada bilər.

Uşaqların inkişafı və təlimi üçün əlverişli şəraitin yaradılmasını təmin etmək məqsədi ilə uşaq barədə məlumat və təcrübə mübadiləsi üçün səy göstərməlidir. Müəllimlər uşağın inkişafı və təlimi barədə ailələrlə müzakirələr təşkil etməli, ideyalarını valideynlərlə bölüşməli, onlarda uşaqlarının təliminə maraq oyatmalıdırlar (Şəkil 1.3).



**Şəkil 1.3. Valideynərlə görüş**

Hər bir ailənin dəyərlərinə hörmətlə yanaşmalıdır. Bunun üçün tərbiyəçi-müəllimlər müxtəlif ailələrin sosial-iqtisadi statusu və mədəniyyətində mövcud olan fərqlərin anlaşılması vərdişlərinə malik olmalıdırlar. Belə münasibətlər vasitəsilə tərbiyəçi-müəllimlər uşaqların təhsili üçün daha təhlükəsiz və sağlam mühit yaratmalıdır.

Valideynlərə uşaq bağçasının simasında dəstək əldə etmələrinə kömək etməlidirlər. Onları bu əməkdaşlıq prosesində, həmçinin uşaqların iştirakı ilə keçirilən bütün fəaliyyət növlərini təşkil etməlidir.

Məktəbəqədər yaşlı uşağı tərbiyə edən müasir ailənin problemlərini dərk etməlidir uşaqların valideynləri ilə ünsiyyət maneələrinin aradan qaldırılması resurslarını aşkar etməlidir.

Valideynlərin uşaq bağçası ilə qarşılıqlı əlaqəsində problemlər:

- Valideynlər tələblər qoyur, müraciət edirlər, lakin özləri bir-birlərini eşitmirlər, qarşılıqlı anlaşmada çətinlik çəkirlər;
- Valideynlər qarşı tərəfdən məsuliyyət tələb edirlər, lakin məsuliyyətdən boyun qaçırırlar;
- Valideynlərdə tənqid üstünlük təşkil edir, gərginlik yüksəlir, qaçılmaz şikayətlər və münaqişələr yaranır.

Belə fəaliyyət çərçivəsində onlar aşağıdakılarla tanış olmalıdırlar:

- Uşağın bu yaşa xas olan xüsusiyyətləri ilə;
- Təlim-tərbiyə işinin vacibliyi ilə;
- Uşaqların qarşılıqlı fəaliyyət göstərdikləri inkişafetdirici və stimullaşdırıcı mühitin mühüm rol oynaması ilə;
- Fiziki və emosional müdafiə və təhlükəsiz mühitin təmin edilməsi zərurəti ilə;
- Uşaq bağçasında aparılan fəaliyyət ilə

Problemlər necə ortaya çıxır?

- Uşağa hərtərəfli diqqətin olmaması;
- Uşağın qabiliyyətinə inamsızlığı;
- Məktəbə zəif hazırlığı;
- Müəssisələrin ailə tərəfindən təhsilə maddi dəstək üçün artan ehtiyacları.

Valideyn ailədə, tərbiyəçi müəllim təhsil müəssisəsində uşaqları tərbiyə edərkən bəzi prinsipləri əsas tutmalıdır. Qısaca bu prinsiplərə diqqət yetirilməli və proses zamanı istifadə edilməlidir. Prof. M. Muradxanov prinsipləri aşağıdakı kimi qruplaşdırır::

**1. *Tərbiyədə fərdi yanaşma prinsipi* -** ailədə tərbiyə vasitələri seçilərkən uşağın fərdi xüsusiyyətləri nəzərə alınmalıdır. Fərdi yanaşma ilə fərd tərbiyəsini eyniləşdirmək olmaz.

Fərdi tərbiyə uşağı təklikdə, kollektivdən tamamilə ayrılıqda tərbiyə etməyi nəzərdə tutur. Fərdi yanaşma isə uşağı kollektiv içərisində saxlamaqla, ona düzgün təsir etmək üçün fərdi xüsusiyyətləri nəzərə almağı tələb edir. Fərdi tərbiyə tərbiyənin məqsədini uşağın şəxsi xüsusiyyətinə tabe edərək, hər uşağın tərbiyə məqsədini bu keyfiyyətlərdən asılı etməyi nəzərdə tutur. Fərdi yanaşma isə uşağın fərdi xüsusiyyətlərinə uyğun olaraq onu ümumi məqsədə gətirib çıxarmağı tələb edir. Üsul və vasitələr uşağın xüsusiyyətlərinə uyğun olaraq seçilir.

Fərdi yanaşma yalnız uşaqlarla işləməklə deyil, həm də valideynlərlə işləmək üçün vacibdir. Valideynlərlə ünsiyyətdə olan tərbiyəçi-müəllim valideynlərin əhvalını, vəziyyətini hiss etməlidir. Tərbiyəçi–müəllim zəruri hallarda, valideynə güvənmək, hər hansı bir vəziyyətdə uşağına necə kömək etmək barədə tövsiyyələr verə bilər. Ailədə tərbiyə prosesində fərdi yanaşmanın düzgün aparılması üçün valideyn hər bir uşağı yaxşı-yaxşı öyrənməlidir. Əgər uşaq hövsələsizdirsə onda səbr, təmkin formalaşdırmağa çalışılmalıdır. Əgər valideyn özü hövsələsizdirsə, həmin xüsusiyyətin uşaqda formalaşmasına şərait yaranır.

**2.** ***Hörmət və tələbkarlıq prinsipi*** **-** validevn uşağa hörmətlə yanaşmalıdır. Valideyn uşağa təkcə tələbkarlıqla yanaşmamalı, hörmət göstərməyi bacarmalıdır. Uşaq nə qədər nadinc olsa da, valideyn onunla nəzakətli, mədəni davranmalıdır.

**3.** ***Tərbiyə olunanın müsbət cəhətlərinə istinadən qüsurların aradan qaldırılması (nikbinlik) prinsipi*** **-** uşağa daxilən xas olan və inkişaf edən müsbət təbii imkanlara istinad edərək, onları təkmilləşdirmək tərbiyənin səmərəli təşkilinə böyük kömək edir. Belə ki, heç də bütün ailələrdə uşaqlar normal və əxlaqlı böyümürlər. Qüsurlu ailə tərbiyəsi, üstəlik məktəbdə pedaqoji kollektivin tərbiyə işinə laqeyd yanaşması "çətin" uşaqların meydana çıxmasına şərait yaradır. Çox zaman onlar özlərini ailədə kobud aparır, eyni zamanda, müəllimlərin sözünə baxmır və s. Lakin hər bir uşağın, insanın, yeniyetmənin mənfi keyfiyyətlərlə yanaşı müsbət keyfiyyətləri də vardır. Valideyn bu müsbət cəhətləri axtarıb tapmalıdır.

**4.** ***Uşağın diqqətini mənfi nümunələrə yönəltməklə davranış normalarından kənaraçıxma hallarının qarşısını almaq prinsipi*** **-** pedaqoqlar bu prinsipin zəruri hallarda istifadə edilməsini məsləhət bilirlər . Uşaqları adətən müsbət nümunələr əsasında tərbiyə etmək məqsədəuyğun sayılır.

**5.** ***Tərbiyəvi təsirlərdə vahidliyin göstərilməsi prinsipi*** **-** bir çox hallarda ailə üzvləri bu prinsipə əməl etmir. Ata tərəfindən uşağa verilmiş tapşırıq yaxud cəza sonradan ana tərəfindən ləğv edilir. Belə hallara yol vermək olmaz. Ailədə valideynlər, məktəbdə isə müəllimlər arasında yekdilliyin olmadığını, ona qarşı müxtəlif tələbkarlıq göstərildiyini görən uşaq yeniyetmə, ilk gənclik yaşında olan şagird öz şəxsi təcrübəsinə yaxud yaşlıların, kənar şəxslərin mülahizələrinə əsasən hərəkət edir. Bəzən hətta ata-anaya tabe olmamağa başlayır və ya ailədə valideynlərindən, məktəbdə müəllimlərindən hansının göstərişi, tapşırığı, tələbi, məsləhəti onun üçün sərfəlidirsə, ona əməl edir.

**6.** ***Sistemlilik və ardıcıllıq prinsipi*** **-** ailələrlə tərbiyə işləri müəyyən sistem və ardıcıllıqla aparılmalıdır. Bu işlə müntəzəm, həmişə məşğul olmaq lazımdır. Tərbiyə prosesində öz hökmlərində ardıcıl olan tərbiyəçi-müəllim, valideyn yüksək nüfuza malik olur.



**Şəkil 1.4. Valideyn və tərbiyəçi-müəllim ünsiyyəti**

**7.** ***Valideyn ilə tərbiyəçi-müəllimin ünsiyyəti*** (Şəkil 1.4). Tərbiəçi-müəllimin bütün valideynlər ilə birlikdə qurduğu bütün işlər möhkəm bir təməldir. Valideynlərlə ünsiyyət qurarkən, tərbiyəçi-müəllim ünisyyət qaydalarına uyğun davranmalıdır. Tərbiyəçi-müəllim hər gün valideynlərlə ünsiyyət qurur və buna görə də ailənin uşaq bağçasına münasibətinin necə olacağı məhz bundan asılıdır.

**8.** ***Tərəfdaşlıq deyil, əməkdaşlıq*** **-** müasir valideynlər savadlı, bilgili və öz uşaqlarını

necə yetişdirməyi yaxşı bilən insan olmalıdır. Buna görə də təlimat mövqeyi və pedaqoji biliklərin sadə təbliğatı bu gün müsbət nəticələr vermir. Çətin pedaqoji vəziyyətlərdə qarşılıqlı yardım, ailə dəstəyinin yaradılması və uşaq bağçasının kollektivinin ailə problemlərinə marağının və səmimi kömək istəyinin göstərilməsi daha səmərəli olacaq.

**9. *Dinamiklik* -** *b*u gün uşaq bağçası fəaliyyət deyil, inkişaf rejimində olmalı, mobil sistem təşkil etməli, valideynlərin sosial tərkibinin dəyişməsinə, onların təhsil tələbatlarına və tərbiyəvi tələblərinə tez cavab verməlidir. Bundan asılı olaraq uşaq bağçasının ailə ilə iş formaları və istiqamətləri dəyişməlidir.

## Tələbələr üçün fəaliyyətlər

**1. Qrup işi:** Karusel üsulundan[1] istifadə edərək əməkdşlığın xüsusiyyətlərinin mənfi və müsbət cəhətlərinin müəyyən edin və aşağıdakı cədvələ qeyd edin (Cədvəl 1.1).

1. Verilən xüsusiyyətlərin müsbət cəhətlərini müəyyən edin.
2. Verilən xüsusiyyətlərin mənfi cəhətlərini təyin edin.
   1-ci qrup: Birgə təcrübə və səriştə.
   2-ci qrup: Qarşılıqlı dəstək.
   3-cü qrup: İş bölgüsü.
   4-cü qrup: Artırılmış resurslar.
   5-ci qrup: Artırılmış səmərəlilik.
   6-cı qrup: Dəyərləndirmə və monitorinq.
   7-ci qrup: Əməkdaşlıqda qarşılıqlı inam.

| **1, 2, 3, 4, 5, 6, 7-ci qrup** | |
|---|---|
| **İş bölgüsü** | |
| **+** | **-** |
| | |

**Cədvəl 1.1. İş vərəqinin nümunəsi**

2. Verilmiş sənədlərdə[2] ailələrin əməkdəşlığının əksini araşdırın və aşağıdakı cədvələ qeyd edin (Cədvəl 1.2).

| **1-ci sənəd** | **2-ci sənəd** | **3-cü sənəd** |
|---|---|---|
| | | |

**Cədvəl 1.2. Qeydlər üçün cədvəl**

[1] Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. "Karusel" kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir.

[2] Müəllim üçün qeyd: Məktəbəqədər təhsil üzrə mövcud normativ hüquqi sənədlərini çap edib hazır şəkildə tələbələrə təqdim edin.

3. "Akvarium" üsulundan[3] istifadə edərək fəaliyyəti təşkil edin.

**Müzakirə mövzusu:** Valideynlərlə əməkdaşlıq uşaqlar, valideynlər və pedaqoji kollektiv üçün vacib şərtdir. Niyə?

4. Ailələrlə iş qaydalarına əlavələr edin və bu qaydaları prinsiplərlə uyğunlaşdıraraq, cədvələ əlavə edin (Cədvəl 1.3):

| Qaydalar | Prinsiplər |
|---|---|
| Ad və ya soyadla müraciət etmək | Fərdi yanaşma, hörmət və tələbkarlıq prinsipi və s. |
| Valideynlərə qarşı səmimi münasibət | |
| Valideynləri dinləyib-anlamaq | |
| Etibarlılıq | |

**Cədvəl 1.3. Ailələrlə işin qayda və prinsipləri**

5. Qrup müzakirəsi

**Qrup 1:** Kəmalə tez-tez uşaq bağçasına cırıq paltarda gəlir. Buna dözə bilməyən tərbiyəçi-müəllim bir dəfə anasına müraciət edir: "Qızınızı daha səliqəli geyindirə bilərsinizmi? Sizin başqa geyiminiz yoxdur?" və cavab eşidir: "Daha yaxşı paltar ala bilsəydim sizin bağçanızda nə işimiz var idi".

- Ana irad dinlədikdən sonra hansı hissləri yaşadı?
- Yaranan narahatçılığı necə aradan qaldırmaq olar?
- Tərbiyəçi-müəllim hansı prinsiplərə riayət etməli idi?

**Qrup 2**: Bazar ertəsi tərbiyəçi-müəllim Əlinin corablarında deşik olduğunu qeyd etdi. Cümə günü anasını gördükdə soruşdu: "Uşağın corablarını həftə boyu tikə bilmədiniz? Axı uşaq pinti böyüyür!" Ana utancından qızararaq soyunma otağından çıxdı.

- Hadisəni təhlil edin. Tərbiyəçi-müəllim hansı səhvi buraxıb?
- Bu vəziyyəti necə düzəltmək olar? Tərbiyəçi-müəllim hansı prinsiplərə riayət etməli idi?

---

[3] Müəllim üçün qeyd: Akvarium bir neçə variantda keçirilə bilər.
"Akvarium"un keçirilməsinin 1-ci variantı: şagirdlərin köməyi ilə diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və.s) müəyyən edilir. Şagirdlər 2 qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Dairədən kənardakı stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir. Müəyyən olunmuş mövzu üzrə birinci qrup diskussiya aparır.15-20 dəqiqədən sonra diskussiya dayandırılır, "xarici dairənin" iştirakçıları1 diskussiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.
"Akvarium"un keçirilməsinin 2-ci variantı: "Daxili dairənin" iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir və birinci variantdan fərqli olaraq iştirakçılar bu zaman yalnız problemin "lehinə" olan dəlilləri söyləyirlər. Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər,dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar.15-20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil.

**Qrup 3:** Səhər Nərgizi gətirərkən valideyn tərbiyəçi-müəllimi xəbərdar edir, uşaq evdə artıq səhər yeməyi yeyib, onu yedizdirmək lazım deyil. Uşaqlar yeməyə oturduqda Nərgiz ağlayaraq sıyıq istədiyini bildirir. Müəllim uşağa sıyıq verir. Axşam valideyn tərbiyəçi-müəllimə kobudcasına uşağın artıq yeməsinin onun üçün ziyan olduğunu bildirir.

- Bu vəziyyətdə tərbiyəçi nə etməlidir?
- Tərbiyəçi-müəllim hansı prinsiplərə riayət etməli idi?

6. Cütlərlə iş. Hər valideyn tipinə uyğun keys (hadisə) hazırlayın.

7. Cütlərlə iş. Hazırlanmış qısa hekayələri səhnələşdirin.

## Qiymətləndirmə

1. Ailələrlə işin vəzifə və prinsiplərini ayırd edin. Cədvəldə müvafiq qeydiyyat aparın. (V – vəzifə, P – prinsip).

| № | Məzmun | V | P |
|---|---|---|---|
| 1 | Hər bir uşağın ailəsi ilə əməkdaşlıq qurmaq | | |
| 2 | Uşağın inkişafı və tərbiyəsi sahəsində ümumi və xüsusi problemlərin diaqnostikasını aparmaq. | | |
| 3 | Valideynlərin (qanuni nümayəndələrin) öz təhsil imkanlarına olan inamını qorumaq | | |
| 4 | Ailə və uşaq kollektivində şəxsiyyətin inkişafına vahid yanaşmalar təmin edən fəal inkişaf mühitini yaratmaq | | |
| 5 | Uşaqların inkişafı və tərbiyəsi üçün ailənin və uşaq bağçasının səylərini birləşdirmək | | |
| 6 | Qarşılıqlı anlaşma, ümumi maraqlar, ünsiyyətə müsbət münasibət və valideyn, uşaq və tərbiyəçi-müəllimlərin qarşılıqlı əməkdaşlığını təmin etmək | | |
| 7 | Valideynlik sahəsində valideynlərin bacarıqlarını artırmaq | | |
| 8 | Valideynləri birgə fəaliyyətə, cəlb etmək | | |
| 9 | Ailə üçün uşaq bağçasının açıqlığına təmin etmək (valideyn uşağının necə yaşadığını və inkişaf etdiyini bilmək və görmək imkanları) | | |
| 10 | Müəllim və valideynin uşağın inkişafında birgə əməkdaşlığı | | |

2. Təsəvvür edin ki, siz yeni işə başlamış tərbiyəçisiniz. Sizin valideynlərlə işinizdə nəaliyyət əldə etmənizə nə yaxşı təsir edər, işinizi nə çətinləşdircək?
3. Valideynlərin uşaq bağçası ilə qarşılıqlı əlaqəsində yarana biləcək problemləri sadalayın.
4. Valideynlərin uşaq bağçası ilə qarşılıqlı əlaqəsində yarana biləcək problemləri sadala.
5. Prinsiplərin birini seç və esse yaz.
6. Valideynlər kritik müşahidəçilərdirlər. Aşağıdakı bəndlərdən düzgün cavabı seçin.

A) Qavrayışın dəyişməsi valideynlərin təhsil prosesində iştirak edənlər kimi ailə növləri anlayışında bir dəyişməyə gətirib çıxardır: maraqlanan, lakin mütəxəssislərin köməyi ilə problemləri həll etmək istəyən;

B) Valideynlər təhsil prosesində iştirak edə biləcək və məmnuniyyətlə iştirak edən liderlərdir, uşaq müəssisəsinin hər hansı bir işinin dəyərini görürlər;

C) Valideynlər əhəmiyyətli motivasiya şəraitində iştirak edən icraçılardır;

D) Tərbiyəçilərin öz uşağına münasibətdə hərəkətlərini daim tənqid edən, bəzən yuxarı instansiyalarda araşdırma tələb edən valideyndir, baxmayaraq ki, işi bu işin işçiləri ilə konstruktiv ünsiyyət rejimində həll etmək mümkündür.

## 1.2. Ailələrlə səmərəli əməkdaşlıq metodlarını seçir

### Ailələrlə səmərəli əməkdaşlığın təşkili

Uşaq bağçasının ən vacib məqsədi uşağa həmyaşıdları ilə ünsiyyət qurmaq və oynamaq imkanı verməkdir. Uşaq bağçası sizin evinizi nə qədər çox yansıdarsa o qədər yaxşıdır, ancaq hesab etməyin ki, o, ailəni əvəz edəcək düzəlməz səhvə yol verməyin ".

Alan Fromm ("Valideynlər üçün Əlifba" kitabından»).

Valideynin rolu xüsusi və çox məsuliyyətlidir. Bu rol (əsasən ailə və cəmiyyət tərəfindən müəyyən edilir) insana başqa bir insanın – onun uşağının həyatı və rifahı üçün böyük məsuliyyət qoyur. Həyatın ilk günlərindən etibarən uşaq ətrafdakı gerçəkliyi öyrənməyə başlayır və bu inkişafa ən böyük təsir göstərən valideynlərdir.

Ailə şəraitində idrak inkişafı kifayət qədər həyata keçirilmir. Bu, valideynlərin öz uşaqları ilə ünsiyyət qurma bacarığının olmaması, uşağın idrak inkişafı prosesləri barədə biliklərin olmaması ilə daha da dərinləşir. Buna görə də uşağın tam idrak inkişafı pedaqoqların və valideynlərin səylərinin birləşdirilməsi, qarşılıqlı fəaliyyət və əməkdaşlıq, vahid proqram üzrə hərəkətlərin əlaqələndirilməsi, ümumi vəzifələrin yerinə yetirilməsi, qarşılıqlı mübadilə kimi nəzərdən keçirilir.

"Ailə - məktəbəqədər müəssisə" kontekstində əsas məqam - müəllim və valideynlərin birlikdə çətinliklər, sevinclər, uğurlar və uğursuzluqlar, konkret uşağın ailədə və məktəbəqədər təhsil müəssisəsində tərbiyə olunması prosesində qarşılıqlı əlaqəsidir. Uşağın başa düşülməsində, fərdi problemlərinin həllində, inkişafının optimallaşdırılmasında ailə və müəssisənin birgə işi əvəzsizdir.

Etibarlı münasibətlərin qurulmasının ilkin mərhələsində uşaqların ailələri haqqında mümkün qədər çox məlumat əldə etmək lazımdır: ənənələr, şərait, həvəslər, uşaq haqqında məlumat.

Nə üçün valideynlərin təhsil prosesində iştirakı vacibdir?

Valideynlərin və ailələrin təhsildə iştirakı proqramın mühüm üstünlüyüdür. Ailəni hər bir uşağın təhsilinin əhəmiyyətli bir hissəsi etmək üçün tərbiyəçi-müəllimlər:

- Valideynlərə və ailəyə təhsil prosesində tərəfdaş kimi baxırlar;
- Mütəmadi olaraq onlarla ünsiyyət qurular;
- Evdə öyrənmə prosesini dəstəkləməyə kömək edirlər.

Valideyn və müəssisənin əlaqəsini yaradarkən tərbiyəçi müəllim bir çox qaydalara riayət etməlidir. Prosesi təşkil edərkən tərbiyəçi müəllimlər öyrənmə prosesinin bir hissəsinə çevrilir:

- Valideynləri təşviq edərkən və məlumatlandırdıqda (Şəkil 1.5);
- Valideynlər uşaqları gətirdikləri və götürdükləri zaman salamlayırlar;



**Şəkil 1.5. Valideynlərin məlumatlandırılması**

- Valideynlərdən məlumat əldə etməyə çalışırlar;
- Ev və uşaq bağçası arasında ünsiyyəti dəstəkləyirlər;
- Uşaq bağçası işlərinə valideynlərin iştirakını təşviq edirlər;
- Valideynləri uşaqların tərbiyəsi və inkişafı haqqında məlumatla təmin edirlər;
- Uşaqların təlimini dəstəkləmək üçün valideynlər tərəfindən evdə istifadə üçün materiallar və resurslar təmin edir.

**Məktəbəqədər təhsil müəssisəsi, ailə və ictimaiyyətin birgə tərbiyə işinin formaları**

Məktəbəqədər təhsil müəssisəsi, ailə və ictimaiyyət uşaqların tərbiyəsi ilə bağlı müxtəlif formalarda əlaqə saxlayır. Bu əlaqə formalarını iki qrupa bölmək olar:

1. Fərdi əlaqə formaları (Şəkil 1.6);
2. Kollektiv əlaqə formaları (Şəkil 1.7).



**Şəkil 1.6. Fərdi əlaqə forması**

Fərdi əlaqə formaları tərbiyəçi-müəllimlərin, valideyn və ictimaiyyət nümayəndələri ilə bilavasitə əlaqə yaratmaqla aparılan işdir. Bu proses müxtəlif metodların köməyi ilə aparılır. Nisbətən geniş yayılmış fərdi əlaqə metodlarına aşağıdakılar daxildir:

- Tərbiyəçi-müəllimin ailəyə getməsi;
- Valideynlərin, habelə ictimai təşkilat nümayəndələrinin məktəbəqədər təhsil müəssisəsinə dəvət edilməsi;
- Uşaq gündəliyi, yaxud məktub vasitəsilə əlaqə;
- Telefon vasitəsilə əlaqə;
- Fərdi məsləhət;
- Könüllülük;
- Anketləşmə.



**Şəkil 1.7. Kollektiv əlaqə forması**

Məktəbəqədər təhsil müəssisəsinin ailə və ictimaiyyətlə əlaqəsi kollektiv formalarda da aparılır.

Kollektiv əlaqə forması - məktəbəqədər müəssisənin və ya hər hansı bir qrupun valideynləri ilə birgə işin təşkilini nəzərdə tutur. Bu valideynlərin və tərbiyəçilərin birgə tədbirləridir. Bəzən bura uşaqlar da daxil edilir. Kollektiv iş forması müxtəlif metodların köməyi ilə həyata keçirilir. Bunlar aşağıdakılardan ibarətdir:

- Valideyn yığıncaqları. (iclas);
- Valideyn universitetləri və pedaqoji lektoriyalar;
- Ailə tərbiyəsi təcrübəsinə həsr olunmuş konfranslar və sual-cavab gecələri;

- Valideyn komitələri;
- Məktəbəqədər təhsil müəssisəsi və ailəyə kömək üçün qəyyumluq şuraları;
- Dəyirmi masa;
- "Açıq qapı" (Şəkil 1.8);
- Valideyn klublar;
- Maarifləndirmə təlimləri.



Şəkil 1.8. "Açıq qapı" günü

### Ailələrlə səmərəli əməkdaşlıq metodları

Valideynlər və tərbiyəçi müəllimlərin biri-biri ilə tanışlığına, ümumi müzakirələrə, informasiya mübadiləsinə və valideynlərin suallar verməsinə imkan yaradılmalıdır.

Uşaq bağçasının ailə ilə qarşılıqlı əlaqəsi müxtəlif yollarla həyata keçirilə bilər. Bu məqsədlə valideynlərlə ənənəvi və qeyri-ənənəvi metodlardan və iş üsullarından istifadə olunur.

Qeyri-ənənəvi metodlar:

***İnformasiya və analitik:***

- «Etibarlı poçt»;
- «Sehirli sandıq»;
- «Arzu və təkliflər qutusu».

***İdrak prosesi:***

- Pedaqoji söhbətlər;
- Dairəvi masa;
- Sual və cavablar axşamı;
- Valideyn konfransları;
- Təlimlər;
- Uşaqlarla birgə məşğələlər;
- Açıq qapı günü;
- Mühazirələr.

***Asudə vaxt:***

- Əyləncə;
- Master-klas;
- Bayramlar (Şəkil 1.9);
- İdman əyləncələri;
- Birgə oyunlar;
- Ad günlər;
- Birgə gəzinti;
- Yaradıcı sərgilər.



Şəkil 1.9. Valideynlərin iştirakı ilə bayram tədbiri

***Əyani məlumatlandırıcı:***

- Valideyn guşələri;
- Ailə albomları «Bizim mehriban ailə», «Mən sağlamlığımı qoruyuram, özümə kömək edirəm», «Mənim gəzdiyim küçələr»;
- Fotomontaj "Qrupun həyatından», «Ailə əhatəsində»;
- Şəkil sərgiləri «Anam hamıdan yaxşıdır», «Ana və mən, xoşbəxt anlar», «Atam, anam, mən - mehriban ailə»;
- Yaxşı əməllər kartotekası.

***Müxtəlif istiqamətli ailə klubları.*** Klubun məqsədi:

- Uşaqların klubun məktəbəqədər təhsil müəssisəsinin və ailənin səylərini birləşdirir;
- Valideynlərin pedaqoji bacarıqlarını;
- Ailələrlə təhsil təcrübəsinin mübadiləsi;
- Valideynlərə bir-biri ilə və uşaqlarla ünsiyyət qurmağa.

***Valideynlərin bağça fəaliyyətinə cəlb edilməsi aşağıdakı kimi təşkil edilməlidir:***



**Şəkil 1.10. İstiqamət xarakterli yığıncaq**

1. ***Müəssisəyə ilkin gəliş.*** Uşaq bağçaya gəlməmişdən əvvəl valideyn gəlib tərbiyəçi və uşaqları görməli, proqramla tanış olmalıdır.
2. ***İstiqamət xarakterli yığıncaqlar*** **(Şəkil 1.10).** Bu tipli yığıncaqlar valideynlərə başqa valideynləri tanımağa imkan verir və ümumi informasiya əldə etməyə kömək edir.
3. ***Ailələrlə evdə görüş*** - Tərbiyəçinin ailəyə gəlişi ona uşaq və valideyni daha yaxşı tanımaq imkanı verir. Uşağın ailəsinə baş çəkmək, onun öyrənilməsi, onun valideynləri ilə əməkdaşlıq qurması tərbiyə şəraitini aydınlaşdırmaq üçün çox şey verir. Valideynləri ilə əvvəlcədən razılaşdırmaqla, onlar üçün münasib olan səfər vaxtı, həmçinin səfərin məqsədi müəyyən edilir. Uşaq evinə gəlmək - ziyarətə gəlməkdir. Deməк, xoş əhval-ruhiyyə ilə mehriban, xeyirxah olmaq lazımdır. Şikayətlər, iradlar unudulmalıdır, valideynlərə, onların həyat tərzinə tənqidlə yanaşılmamalıdır, taktiki, gözəgörünməz məsləhətlər verilməlidir. Uşağın davranışı və əhval-ruhiyyəsi (sevincli, sərbəst, sakit, qarışıq, dost) də ailənin psixoloji mühitini başa düşməyə kömək edir.

***4. Əlavə görüş vaxtı*** (Şəkil 1.11) - əlavə informaisiya üçün tərbiyəçi belə görüşlər təşkil edir.

***5. Telefon zəngləri*** **-** hər hansı xüsusi məqsədlə və ya mütamadi olaraq ayda 1 dəfə ola bilər.

***6. Valideyn-müəllim konfransı*** **-** *u*şağın inkişafını müzakirə və valideynin öz fikrini bildirməsi üçün formal yığıncaqdır.



**Şəkil 1.11. Əlavə görüşlər**

***7. Qrup valideyn iclasları*** - valideyn iclasları ildə 3 dəfə keçirilir. Bu yığıncaqlarda valideynlər uşaq bağçası və ailə şəraitində müəyyən yaşlı uşaqların tərbiyəsinin məzmunu, vəzifələri və metodları ilə tanış olurlar.Valideyn iclaslarını dəyirmi masa şəklində keçirmək olar. İldə 3-4 dəfə 1,5 saat davam edən tövsiyə olunur. Məsələn, bir neçə mövzu nümunəsi: "sizin itaətkar uşaq?", "Uşaqları cəzalandırmaq lazımdır?" və s.

Valideyn toplantısına hazırlıq zamanı bu qaydalara riayət etmək lazımdır:

- Toplantı məqsədyönlü olmalıdır;
- İclasın keçirilməsi planı valideynlərə məlum olmalıdır;
- İclas valideynlər üçün əlverişli vaxtda keçirilməlidir;
- Valideynlərin istək və maraqlarına cavab verməlidir;
- Təcrübə xüsusiyyətli olmalıdır;
- Pedaqoq və valideynlərin ünsiyyəti həssas və davamlı olmalıdır, dialoq şəklində aparılmalıdır;
- İclas pedaqoji cəhətdən faydalı və yaxşı hazırlanmış olmalıdır;
- İclasda uşaqların uğursuzluqlarına, valideynlərin tərbiyədə etdiyi səhvlərə aşkarlıq verilməməlidir.

***8. Məsləhət*** - adətən fərdi və ya qrup şəklində valideynlər üçün aparılan məsləhətləşmə sistemi tərtib edilir. Qrup məsləhətləşmələrinə eyni problemləri olan müxtəlif qrupların valideynlərini və ya əksinə (şıltaq uşaqları, rəsm çəkməyə, musiqiyə parlaq qabiliyyəti olan uşaqlar) dəvət etmək olar. Məsləhətləşmənin məqsədi valideynlərin müəyyən biliklərin, bacarıqların mənimsənilməsidir, onlara problemli məsələlərin həllində kömək etməkdir.

***9. Xeyirxah iş günləri*** - valideynlər inkişaf mühitinin yaradılmasına kömək edirlər.

***10. Valideynlərlə söhbətlər*** - söhbət müəllimin ailə ilə əlaqəsinin qurulmasının ən əlverişli formasıdır. Söhbət həm müstəqil, həm də digər formalarla birlikdə istifadə olunur: ailələrdə, valideyn iclaslarında, məsləhətləşmələrdə.

***11. Valideynlər üçün oyun kitabxanası*** **-** oyunlar böyüklərin iştirakını tələb etdiyindən, valideynləri uşaqla ünsiyyət qurmağa məcbur edir.

***12. Açıq qapı günü* -** işin kifayət qədər geniş forması olmaqla, valideynləri məktəbəqədər təhsil müəssisəsi, onun ənənələri, tərbiyə-təhsil işinin qaydaları, xüsusiyyətləri ilə tanış etməyə imkan verir.

***13. Əyani məlumat:***

- Uşağın inkişaf - məlumat qovluğu;
- Foto sərgilər (Şəkil 1.12);
- Xeyirxah işlərərin qutusu (Şəkil 1.13).



**Şəkil 1.12. Ev tapşırıqları və fotosərgilər**



**Şəkil 1.13. Xeyirxah işlərin qutusu**

***Valideyn guşələrinin*** diqqətini cəlb etmək üçün **"***Evdə uşağı nə ilə və necə məşğul etmək olar?", Soruşurlar – cavab verək", "Təşəkkür edirik", "Bu maraqlıdır", "Oynayaq", "Diqqət yetirin"* başlıqlarından istifadə etmək olar. Orada uşağın nə ilə məşğul olduğunu (Şəkil 1.14) anlamaq imkanını verən praktiki material, xüsusi oyun və məsləhətlər verilir. Həmçinin valideyn guşəsində (Şəkil 1.15) qrup işi, rejim anları, valideynlərlə iş planı, elan lövhəsi, menyu haqqında məlumatlar olur. Guşədəki material hər iki həftədə bir dəfə yenilənir.



**Şəkil 1.14. Evdə uşaq üçün məşğuliyyət**





**Şəkil 1.15. Valideyn güşəsi**

***14. Anketləşmə*** - anketləri təhlil edərək ailə haqqında çox şey öyrənmək olar: uşağın həvəsi haqqında, onun evdə davranışı haqqında, valideynlərin istifadə etdiyi tərbiyə metodları haqqında, ailədə tərbiyə ilə məşğul olanların haqqında. Bunlar bir ailənin pedaqoji tələbatlarına daha yaxşı diqqət yetirməyə, onun fərdi xüsusiyyətlərini nəzərə almağa kömək edir.

Anketləşmə - uşaq bağçasının işinin müxtəlif məsələləri üzrə informasiyanın əldə edilməsinin və paylaşılmasının fəal formalarından biridir. Anketləşdirmə pedaqoji kollektivə müəyyən məsələlər üzrə daha dolğun məlumat əldə etməyə, onu təhlil etməyə və bu istiqamətdə gələcək işləri düzgün planlaşdırmağa kömək edir. Digər tərəfdən anketləşmə valideynlərə bu və ya digər mövzuda daha ciddi düşünməyə, öz pedaqoji imkanlarını, uşaqla qarşılıqlı münasibət tərzini qiymətləndirməyə və s. kömək edir.

Anketləşmənin üstünlükləri:

- Hər hansı bir problem haqqında tez məlumat alma imkanı;
- Məlumatın etibarlılığı;
- Bütün valideynləri əhatə etmə imkanı.

Müəllimlər valideynlərin cavablarını təhlil edərkən ailə, valideynlərin uşaq bağçasına münasibətdə tələb və gözləntiləri, uşağın xüsusiyyətləri, valideynlərin tərbiyənin bu və ya digər məsələləri üzrə müəllimlərlə qarşılıqlı əlaqədə olmağa hazır olması, qidalanmanın keyfiyyəti və s. barədə məlumat alırlar.

Anketə daxil edilməlidir:

- Valideynlərə nəzakətli müraciət;
- Sorğunun məqsədi haqqında məlumat ;
- Suallar;
- Anketin sonunda valideynlərə təşəkkür edilməlidir.

Tərbiyəçi-müəllim valideynlərlə iş zamanı aşağıdakıları nəzərə almalıdır:

1. Tərbiyəçi və valideynlər arasında qarşılıqlı hörmətin aşılanması;.
2. Məktəbəqədər təhsil müəssisəsinin fəaliyyətində valideylərin iştiraka həvəsləndirilməsi; .
3. Yaradıcılıq və təşəbbüskarlığın göstərilməsi, müxtəlif ailələrin maraqlarının öyrənilməsi.
4. Ailələrin istəklərinin nəzərə alınması .
5. Uşağın və ailənin fəaliyyətinə nəzarət, pozitiv meyllərin qeyd edilməsi.
6. Düzgün istiqamət dəyərləndirilməli.
7. Uşaq və valideynin zəhməti qiymətləndirilməli.
8. Bütün ailəni cəlb etməli. Ailənin bütün üzvlərinin cəlb edilməsi yolları axtarılmalı.
9. Valideynlərin yığıncaqlara gəlmələrinə nail olunmalıdır. Yığıncaqlar onlara uyğun olan zamana salınmalıdır ki, uşaqlar yalqız qalmasınlar.
10. Məxfilik qorunmalıdır.
11. Ailə məsləhət qrupu yaradılmalı.

## Tələbələr üçün fəaliyyətlər

1. Müəllimin uşağın gözündə valideynlərin hörmətini, tərbiyəsini və onlara bağlılığını hər cür dəstəkləməli olduğunu izah edin.

**Qrup müzakirəsi:**

**Qrup 1.** Məktəbəqədər təhsil müəssisəsinin şəraitinə uyğunlaşma dövründə ailənin uşağa dəstəyi.

**Qrup 2.** Müəllim və valideynlərin uşağın adaptasiyası dövründə birgə işinin təşkilinə qoyulan tələblər.

**Qrup 3.** Məktəbəqədər müəssisələrə daxil olan uşaqların valideynləri üçün məruzə tezisi hazırlayın.

**Qrup 4.** Uşaqların yeni şəraitə alışmasının xarakterini və müddətini müəyyən edən amillər.

2. "Məktəbəqədər təhsil müəssisəsinin ailə ilə əməkdaşlıq formaları" sxemini tərtib edin.
3. Uşaq bağçası və ailə arasında qeyri-ənənəvi qarşılıqlı formaların birinin xülasəsini hazırlayın.

**Müzakirə.** Ailələrlə işin hansı formaları sizə təsirli görünür? Niyə? Hansı formaları sizə təsirli görünür?
Aşağıdakı suallardan istifadə edərək anket tərtib edin:

- Uşağın temperamenti necədir?
- Boş vaxtınızı uşağınızla necə keçirirsiniz?
- Uşaqla ünsiyyət sizə zövq verirmi?
- Uşağınız nə ilə məşğul olmağı sevir?
- Hansı oyuncaqlar uşağınızı cəlb edir? Uşağın sevimli oyuncağı hansıdır?
- Tərbiyədə hansı üsulları tətbiq etməyə üstünlük verirsiniz?
- Ailənizin üzvlərindən kim uşaqla ən çox vaxt keçirir?

4. Auksion üsulundan[4] istifadə edərək ailə ilə iş metodları müəyyən edin.

[4] Qeyd: Müəllim öyrənilən məsələni müəyyən edərək tələbəni auksionun keçirilmə qaydaları haqqında təlimatlandırır. Öyrənilən əşya və ya hadısənin xüsusiyyətləri ardıcıl şəkildə adlandırılır. Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir: hər bir fikirdən sonra müəllim sayır. “Bir, iki”. Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu təklif verən qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini dinləyir.

Valideynlərlə iş metodlarını müəyyən edin. Hər bir metod haqqında qeyd yazın. Klasteri tamamlayın.





## Qiymətləndirmə

Öyrənmə prosesinə bağlı olan qiymətləndirmə meyarı:

**"Ailələrlə səmərəli əməkdaşlıq metodlarını seçir"**

1. Metodları cədvələ uyğun təhlil edin (Cədvəl 1.4, Cədvəl 1.5 və Cədvəl 1.6).

| **Metodun adı:** Ailələrlə evdə görüş | |
|---|---|
| Məqsədi | |
| Ünsiyyət qaydası | |
| Gözlənilən nəticə | |

**Cədvəl 1.4**

| **Metodun adı:** Anketləşmə | |
|---|---|
| Məqsədi | |
| Ünsiyyət qaydası | |
| Gözlənilən nəticə | |

**Cədvəl 1.5**

| **Metodun adı:** Açıq qapı günü | |
|---|---|
| Məqsədi | |
| Ünsiyyət qaydası | |
| Gözlənilən nəticə | |

**Cədvəl 1.6**

2. Məktəbəqədər təhsil müəssisəsi, ailə və ictimaiyyətin birgə tərbiyə işinin formaları hansılardır?

A) Fərdi, valideyn iclasları;
B) Fərdi, kollektiv;
C) Fərdi, pedaqoji şura;
D) Fərdi, cütlərlə.

3. Müəllim öyrənmə prosesinin bir hissəsini təşkil edir:
   1. Valideynləri təşviq edərkən və məlumatlandırdıqda;
   2. Valideynlər uşaqları gətirdikləri və götürdükləri zaman salamladıqda;
   3. Valideynlərdən məlumat əldə etməyə çalışdıqda;
   4. Validenlərin roluna hörmət etdikdə;
   5. Yaradıcı və təşəbbüskar olduqda;
   6. Ev və uşaq bağçası arasında ünsiyyəti dəstəklədikdə;
   7. Uşaq bağçası işlərinə valideynlərin iştirakını təmin etdikdə;
   8. Ailələrə istədiklərini nəzərə aldıqda;
   9. Valideynləri uşaqların tərbiyəsi və inkişafı haqqında məlumatla təmin etdikdə.

A) 1, 2, 3, 6, 7, 9;
B) 1, 2, 3, 4, 5, 6;
C) 1, 2, 3, 7, 8, 9.

## 1.3. Ailə üzvlərini tədris prosesinə cəlb etmək üçün formal və qeyri-formal metodlardan istifadə edir

**Uşaq bağçasının öyrənmə prosesində valideynlərin iştirakı** Valideyn uşağın həyatında əsas rol oynayır. Uşağın təhsilində də valideynin rolu böyükdür. Müasir yanaşmaya görə, valideynlər uşaqlarının təhsilində birbaşa iştirak etməlidirlər.

Məktəbəqədər təhsil müəssisənin işinin prioritet vəzifələrindən biri - uşağın tam inkişafını təmin etmək üçün ailəsi ilə qarşılıqlı əlaqədə olmaqdır. Bu fəaliyyətin əsası valideynlərin təhsil prosesinə cəlb edilməsidir.

Uşaqlarla valideynlərin birgə işi onların arasında daha sıx əlaqələr yaradır, uşağın inkişafına müsbət təsir göstərir və uşağa əməkdaşlıq etməyi öyrədir . Tərbiyəçi -müəllimlər, uşaqlar və valideynlərin birgə işi vasitəsilə valideynlərin təhsil prosesinə qoşulması təmin olunur. Beləliklə, müəllim və valideynlər arasında yeni qarşılıqlı əlaqə formaları yaranır:

- Tədris prosesi çərçivəsində uşaqlarla qrup işi üçün;
- Kompleks tematik plana uyğun olaraq uşaqlarla əl işlərini hazırlamaq
- Uşaq bağçasında keçirilən müxtəlif yarışlarda iştirak etmək

Müasir dövrdə valideynlərin uşaq bağçasının fəaliyyətinə qatılmasının vacibliyi tanınsa da, bəzən pedaqoqlar və valideynlər arasındakı real əlaqələrdə müəyyən bir çətinliklər yaşanır. Bu əlaqələrin inkişafına həm fərdi, həm də peşəkar amillər mane ola bilər və bu, uşaqların tərbiyəsində valideynlərin fəal iştirakçı olmasına mane ola bilər.

Bağça işini valideynlərlə təşkil edərkən stereotipləri pozmaq asan deyil. Ailə və uşaq bağçası arasında anlaşılmazlıq uşağa öz mənfi təsirini göstərir. Sirr deyil ki, bir çox valideynlər bağçada yalnız uşağın qidalanması ilə maraqlanırlar, hesab edirlər ki, valideynlər işdə olarkən uşaq bağçasının məqsədi yalnız uşaqlara baxmaqdır. Bu səbəbdən müəllimlər tez-tez valideynlər ilə ünsiyyətdə böyük çətinliklər yaşayırlar.

Bəzən valideynlərə izah etmək çətin olur ki, uşağa yalnız qidalanmaq və gözəl geyinmək deyil, onunla həm də ünsiyyət saxlamaq, onu düşünməyə öyrətmək lazımdır.

Bu vəziyyəti necə dəyişmək olar? Valideynləri birgə işə necə həvəsləndirmək olar? Uşağın vahid inkişaf məkanını necə yaratmaq? Valideynləri tərbiyə prosesinə necə cəlb etmək olar?

Bu məqsədlə tərbiyəçilər təşəbbüs göstərməlidirlər və hər bir ailə ilə uşağın rifahı üçün necə qarşılıqlı əlaqə qurmağa çalışmalıdırlar.

Ailəni tanımaq, valideynlərin təhsil tələbatlarını öyrənmək, onun üzvləri ilə əlaqə yaratmaq, uşağa qarşı tərbiyəvi təsirləri razılaşdırmaq məqsədilə anketləşmədən başlamaq olar. Real mənzərəni əldə edərək, toplanmış məlumatlar əsasında qohumluq strukturunun xüsusiyyətlərini təhlil etmək, hər uşağın xüsusiyyətləri və məktəbəqədər yaşlı uşaqların ailə tərbiyəsi, hər bir valideynlə ünsiyyət taktikasını işləyib hazırlamaq olar. Bu, hər bir ailənin pedaqoji tələbatlarına daha yaxşı diqqət yetirməyə, onun fərdi xüsusiyyətləri nəzərə almağa kömək edəcəkdir.

Valideynlərin təhsil prosesinə "daxil olması" işin əsas istiqamətlərindən biridir. Bu, təhsil prosesinin iştirakçıları kimi valideynlərin yanaşma tərzinin dəyişməsinə gətirib çıxardır:

- Uşaqlarının müvəffəqiyyəti ilə maraqlanan, pedaqoji prosesdə fəal iştirakçılar;
- Maraqlı, lakin mütəxəssislərin köməyi ilə problemləri həll etmək istəyənlər;
- Laqeyd, "Məni də eyni şəkildə tərbiyə ediblər" prinsipi əsasında yaşayanlar.

Birgə tədbirlərin keçirilməsi zamanı valideynlərə fərqli yanaşma imkanı yaranacaq. Nəticədə, uşağın, valideynin,tərbiyəçinin təhsil səviyyəsi yüksəlir, valideynlərin təhsil fəaliyyətinə, onların yaradıcılıq təşəbbüsünün inkişafına kömək edir. Valideynlər qrupdakı bütün işlərin fəal iştirakçısına çevrilir, uşaqların zəruri köməkçiləri, oyun tərəfdaşları rolunda bir-biri ilə qarşılıqlı əlaqə qurmağı öyrənirlər. Bu əlaqələrin qurulmasına ən çox əyani informasiya formaları rol oynayır . Əyani informasiya istiqamətinə daxildir:

- Valideyn güşələri;
- "Bizim dost ailəmiz", "Mən sağlamlığımı qoruyacağam, özümə kömək edərəm" və digər mövzularda ailə və qrup albomları;
- "Qrupun həyatından", "Ailə dairəsində" fotomontajları.

Hər hansı bir bağçada tədbir valideynlərə imkan verir ki, valideyn:

- Öz uşağının problemlərini, qarşılıqlı münasibətlərdəki çətinlikləri daxildən görsün;
- Müxtəlif yanaşmaları sınaqdan keçirsin;
- Başqa uşaqların davranışını görsün;
- Yalnız uşağı ilə deyil, ümumiyyətlə bağçanın valideyn icması ilə qarşılıqlı əlaqələr qursun .

Valideynlərlə işləyəndə tərbiyəçilər bir məsələyə diqqət yetirməlidir. Hər bir insan, həmçinin valideyinlər bir iş görəndə öz əməyinin qiymətləndirilməsinə ehtiyac duyur. Buna görə də tərbiyəçi-müəllimlər valideynlərin zəhmətini dəyərləndirməlidir.

Ailə ilə qarşılıqlı əlaqənin yaradılması asan iş deyil, onun hazır texnologiyası və ya resepti yoxdur. Bu işin müvəffəqiyyəti müəllimin intuisiyası, təşəbbüsü və səbri, ailənin peşəkar köməkçisi olma qabiliyyətindən asılıdır.

**Tematik planlaşdırmada valideynlərlə qarşılıqlı əlaqə**

Uşaq bağçasının bütün tədris fəaliyyətləri kompleks tematik planlaşdırmaya uyğun olaraq qurulur. Hər bir tematik blok üçün ailələrlə qarşılıqlı əlaqə formaları və valideynlərin təhsil prosesində mümkün iştirakı nəzərdə tutulur.

Bir başlanğıc üçün ( "Mənim evim", "Ailəm" mövzusunu keçdikdə), valideynlərə uşağın maraqlarını və böyüməsini əks etdirən ailə foto albomu, müxtəlif ailə hadisələrinə və ailə bayramlarına yaratmağa təklif etmək məqsədə müvafiqdir. Valideynlərdən bu albom üçün uşağına ailə haqqında hekayə hazırlamasını kömək etmələri xahiş edilməlidir.

Məsələn: *"Payız".* Tematik mövzuya uyğun olaraq meşəyə birgə ekskursiya təşkil oluna bilərlər. "Payız" tematik blokunun sonunda uşaq bağçasında "Təbiətin hədiyyələri " adlı sərgi təşkil etmək olar. Bu sərgi üçün valideynlər uşaqları ilə birlikdə təbii materialdan əl işləri hazırlaya bilərlər. Bundan başqa, sağlamlıqla bağlı tematik mövzularda (məsələn, "Mənim sağlamlığım") valideynlərin iştirakı ilə uşaqların arasında idman yarışları keçirilə bilər.

Uşaq bağçasında təhsil prosesi çərçivəsində uşaqlarla yanaşı valideynləri də qrup

şəklində cəlb etmək olar. Valideyn qrupunun uşaqları üçün "Qəzetdən toxunma" mövzusunda valideyn tərəfindən master-klass keçirtmək olar. Valideynlərin öz əlləri ilə uşaqla birgə uşaq oyuncaqları istehsalı üçün müsabiqə keçirə bilərsiniz. Sonra isə müxtəlif oyuncaqlar sərgisi təşkil etmək: xalq oyuncaqları,tullantı vəsaitlərdən oyuncaqlar.

*"Qış"* tematik mövzusunda dərs keçərkən tərbiyəçilər *"Şaxta babanın ölkəsi"* layihəsini təşkil edə bilərlər. Valideynlər uşaqları ilə birgə yaradıcılığını nümayiş etdirə bilərlər. Nəticədə iplər pambıq, yun, köpüklər və hətta partlamış qarğıdalı dənələrdən yarana bilər.

Tərbiyəçilərin rəhbərliyi altında valideynləri ilə birlikdə uşaqlar yaradıcılıqlarını göstərirlər.

**Valideyn iclasının təşkili**

Məktəbəqədər müəssisənin tərbiyəçisi hər gün uşaq və valideynlərlə ünsiyyət qurur, onların problemlərini, çətinliklərini, eləcə də hər bir ailənin müsbət təcrübəsini görür. Tərbiyəçinin valideynlərlə ünsiyyət qurma vəzifələrindən biri uşağın psixi inkişafının mühüm tərəflərini valideynlərə açmaq, onlara düzgün pedaqoji strategiya qurmağa kömək etməkdir. Bu məsələlərin həllində valideyn iclasları əvəzolunmazdır. Görüşlərdə tərbiyəçi-müəllim valideynlərə məktəbəqədər yaşlarında uşaqların uşaq bağçası və ailə şəraitində böyüdülməsinin məqsədləri, məzmunu, üsulları ilə tanış olmaq imkanı yaradır.

Valideyn iclasının təşkili zamanı tərbiyəçidən təklif olunan mövzuya yaradıcı yanaşma tələb olunur: tərbiyəçi-müəllim valideynləri fəallaşdırmaq üçün müxtəlif üsullarından istifadə etməlidir ki, qoyulan problemə maraq assosiasiyaları yaransın, bəzən də valideyn öz mövqeyini yenidən nəzərdən keçirsin.



**Şəkil 1.16. Təşkilati görüş**

Valideyn iclasları ümumi və qrup görüşləri şəklində ola bilər.

Onlar da öz növbəsində ola bilər:

- Təşkilati (Şəkil 1.16);
- Cari və ya tematik;
- Yekun

İclaslar sual-cavab axşamları, şifahi jurnal, işgüzar oyun, tok-şou, lektoriya, seminar-təcrübə, dəyirmi masa, master-klass, valideyn konfransları, diskussiyalar şəklində keçirilə bilər. İclaslarda valideynləri ilə uşaqların birgə məşğələləri, psixoloji təlimlər, teatr nümayişləri qarşılanır. Bu formalarda olan fərqlərə baxmayaraq, onları bir vəzifə birləşdirir - valideynlərə öz övladlarının yetişdirilməsi, tərbiyə problemlərini motivasiya etmək, bəzi valideynlərin təhsil vəziyyətini yenidən nəzərdən keçirmələri üçün məlumat verməkdir.

Qrup iclasları ildə ən azı üç dəfə olmalıdır. İclasların keçirilməsinin müvəffəqiyyəti bu şərtlərə riayət olunmasını təmin edir: valideynlərin tələbatından irəli gələn düzgün seçilmiş mövzu bu qrup üçün vacib məsələ olmalıdır. Məsələn, "Televiziya - bir dost və ya uşaq yetişdirməkdə bir düşməndir?", "Bir kitaba necə maraq göstərmək olar?". Bir qayda olaraq

valideynlər belə iclaslara gəlirlər, çünki mövzu xüsusi olaraq adlandırılır və onları maraqlandırır. Valideynlər bu görüşə müəyyən gözləntilər ilə gəlir və bu gözləntilər yerinə yetirildikdə nəticə əldə edilməsini gözləyir. Bundan əlavə, sonrakı iclaslarda iştirak problemi dərhal həll olunur: maraqlanan valideynlər özləri növbəti görüşə gələcəklər.

Eyni zamanda, valideyn iclaslarının müvəffəqiyyətinin mühüm şərti - onların keçirilməsi üçün aydın bir cədvəlin müəyyənləşdirilməsidir. Bu cədvəl əvvəlcədən valideynlərə bildirilir ki, onlar əvvəlcədən öz vaxtını planlaşdıra bilsinlər. İmkanlar və ya arzulardan asılı olaraq bu iclaslar rübdə bir dəfə, eyni saatlarda keçirilə bilər.

Valideynlər ailə tərbiyəsinin əxlaq və notasiya deyil, - bütün həyat və düşüncə tərzi olduğunu, ümumbəşəri əxlaq, davranış və ünsiyyət qaydalarına riayət etmək şərti ilə uşaqlarla daimi ünsiyyətolduğunu bilməlidir. Buna görə valideyn iclasının mövzularından biri: "Ailə həyatında uşağın bir günü" olmalıdır. Bu mövzu valideynlərə sadə bir həqiqəti anlamağa kömək edəcək: *"uşaq evdə gördüyünü öyrənir"* və valideynlər ona nümunədir!

Valideyn iclası məşğələlərin keçirilməsindən heç də az mürəkkəb olmayan "janr" sayılır. Burada ümumtəhsil prosesində iştirak edən iki tərəf görüşür - tərbiyəçi-müəllim və valideynlər. Onlar bir-birini dinləyir və üçüncü, ən əsas tərəfin - uşaqların əsas problemlərini müzakirə edir.

**Valideyn iclasının mərhələləri**

**Mərhələ 1**. Valideyn iclasının təşkili

Bu mərhələ şübhəsiz ki, iclasın gündəliyi və bütün iştirakçılara dəvətilə başlayır.

İclasın hazırlanmasında valideynlərin gəlməsinin təşkili barədə düşünmək lazımdır. Təcrübə göstərir ki, işin bu hissəsi vacibdir. Valideyn iclasının gözləmə atmosferini yaratmaq çox vacibdir: valideynləri əvvəlcədən dəvət etməli, fərdi dəvətnamələr göndərilməli, uşaq bağçasında uşaqların həyatını əhatə edən albom və video materiallar hazırlamalıdır. Uşaqların müsabiqə və sərgilərdə iştirak edən valideynlərinə əvvəlcədən təşəkkür məktubları hazırlamaq lazımdır. Hazırlıq mərhələlərinin təşkilati hissəsi valideyn iclasının keçirilməsi üçün otağın tərtibatı ilə başa çatır.

**Mərhələ 2.** Ssenarinin hazırlanması və iclasın keçirilməsi

İclasın ssenarisi və keçirilməsi müəllimin yaradıcılıq predmetidir. Tərbiyəçi-müəllim qrupun valideynlərini daha yaxşı tanıyır, onların əhval-ruhiyyəsini həssas şəkildə tutur. Lakin, hər hansı bir iclas, 5 vacib komponenti daxil etməlidir:

1. Uşaqların nailiyyətlərinin təhlili. Tərbiyəçi müəllim iclasının bu hissəsində valideynləri uşaqların fəaliyyətinin ümumi nəticələri ilə tanış edir.
2. Valideynlərin qrupdakı sosial və emosional iqlim vəziyyəti ilə tanışlığı (Şəkil 1.17).



**Şəkil 1.17. Valideynlərin uşaqlarla birgə işi**

3. Tərbiyəçi-müəllim uşaqların davranışı haqqında müşahidələrini onlar üçün əhəmiyyətli vəziyyətlərdə bölüşür. Söhbətin mövzusu həm qarşılıqlı münasibətlər,

həm nitq, həm uşaqların xarici görünüşü, həm də digər məsələlər ola bilər. Aydındır ki, valideynlər uşaq bağçasının missiyasını digər uşaq və böyüklər ilə qarşılıqlı əlaqədə təcrübə qazanmış ilk sosiallaşma institutu anlayışı kimi başa düşməlidirlər. Tərbiyçi uşaq və ya valideynin mənfi qiymətləndirmələrindən qaçmaq üçün son dərəcə həssas olmalıdır. Son dərəcə nəzakətli olmaq, konkret uşağın, yaxud valideynin ünvanına mənfi qiymətləndirmə aparmaq olamz. İclas bu hissəsi "uşaq günahları", "valideynlərin günahları" siyahısına çevirilməməlidir.

4. Yadda saxlamaq lazımdır ki, valideynlərin psixo-pedaqoji bacarıqlarının artırılması vəzifəsi ən vacib vəzifələrdən biridir. Valideynlərə pedaqoji ədəbiyyatın yenilikləri, maraqlı sərgilər, filmlər və s. haqqında məlumat vermək pis olmaz.
5. Təşkilati məsələlərin müzakirəsi (ekskursiyalar, müavinətlərin alınması və s.) iki komponentdən ibarətdir: görülən işlər haqqında hesabat və gələcək işlər haqqında məlumatlar: maliyyə problemləri valideyn komitəsi ilə əvvəlcədən müzakirə etmək yaxşıdır.

**Mərhələ 3.** Validey iclasının nəticələrini anlamaq

İclasa yekun vurmaq iclasın özündə başlayır: nəticə çıxarmaq, lazımi qərarlar formalaşdırmaq, növbəti toplantı haqqında məlumat vermək lazımdır. Valideynlərin yığıncağa münasibətini öyrənmək vacibdir, valideynlərin qiymətləndirmələri və arzuları üçün əvvəlcədən lazımi anket hazırlamaq məqsədəuyğun olar.

**Valideyn iclasının hazırlığı**

1. Zəruri hallarda, yığıncaqdan əvvəl valideynlərlə yığıncağın mövzusu haqqında sorğu aparmaq lazımdır. Anketlər yığıncaqdan əvvəl evdə doldurulur və onların nəticələri iclasın keçirilməsi zamanı istifadə olunur. Məsələn, "Şıltaqlıq və inadkarlıq haqqında" mövzusunda görüş keçirərkən, qrup və ailə vəziyyətlərini təhlil etmək üçün uşaqların hansı vəziyyətlərdə ən çox inadkar olduqlarını müəyyən etmək üçün valideynlərin sorğusunu aparmaq olar. İclasdan əvvəl, "Uşaqlığımızın oyunları", valideynlərin və uşaqlarının uşaqlıq dövrünün müxtəlif oyunlarını müəyyən etmək üçün anketləşmə aparmaq olar. İclasda valideynlərin uşaqlıq oyunlarının bir neçəsini xatırlatmaq və oynamaq olar (Şəkil 1.18).



**Şəkil 1.18. İcla zamanı oyunlar**

2. Valideynləri aktivləşdirmək və iclasda iştirakını təmin etmək üçün iclasın mövzusunu nəzərə alaraq hər bir ailə üçün dəvətnamələr hazırlanmalıdır. Valideynlər üçün dəvətnamələrin hazırlanmasında uşaqların iştirak etməsi vacibdir. Dəvətnamələr iclasdan əvvəl paylanır.
3. İclasın mövzusuna uyğun olaraq, məsləhətləri əks etdirən orijinal xatırlatmaları

(yaddaş açıqçaları) hazırlanmalıdir.. Xatırlatmanın məzmunu qısa olmalıdır, mətn böyük şriftlə yazılmalıdır. "Ailənin uşaqla ünsiyyət sirləri", "Uşağın xoşbəxt böyüməsini təmin etmək" və s. mövzularda xatırlatmalar iclasda paylanılır.

4. Valideynlər iclasın mövzusunda çıxış etmək üçün cəlb edilə bilərlər. Məsələn, "Uşaq xoşbəxt böyüyür" mövzusunda dəyirmi masa şəklində bir valideyn iclası təşkil edilir: valideynlər, psixoloqlar çıxış edirlər və lazımlı ədəbiyyatlardan istifadə etməyi məslət görürlər .
5. İclasa valideynlərin diqqətinin cəlb edilməsi üçün mövzuya aid plakatlar hazırlanmalıdır.

**Valideyn iclaslarının keçirilməsinin 10 qaydası:**

1. Toplantı yadda qalmalıdır.
2. Valideyni düşünməyə vadar etməlidir.
3. Valideynlər müsbət və konstruktiv əhval-ruhiyyəyə köklənməlidir.
4. İnformasiya bölməsi yaxşı hazırlanmalıdır.
5. Digər valideynlərin yanında uşaqları tərifləmək, onların nailiyyətlərini qeyd etmək, uşağı tənqid etmək yalnız valideynlə tək söhbətdə olmalıdır.
6. Hər bir valideynə kifayət qədər vaxt ayrılmalıdır.
7. Toplantı mühazirə və ya məşğələ deyil. Valideynlər dialoqa cəlb edilməlidir.
8. Valideynlərin vaxtına və öz vaxtınıza hörmət edin, iclas 1saat 20 dəqiqədən çox davam etməməlidir. 20 dəqiqə ərzində məlumat verilməlidir, 15-20 dəqiqə ərzində suallar dinlənməlidir və onlara cavab verilməlidir, 20 dəqiqə isə fərdi suallara ayrılmalıdır.
9. Hər iclasda qrupun ən maraqlı fəaliyyətləri və uşaqların nailiyyətləri haqqında qısa bir hesabat olmalıdır.
10. Gələcək tədbirlər elan edilməlidir, valideynlər əməkdaşlığa dəvət edilməlidir.

## Tələbələr üçün fəaliyyətlər

1. Ziqzaq üsulundan[5] istifadə edərək verilmiş mətni təhlil edin.
2. “Tematik planın hazırlanmasında valideynlərin rolu və onlarla əlaqə formaları“ mövzusunda müzkirə təşkil edin**.**
3. Sujetli və rollu oyunun köməyi ilə valideyn iclası təşkil edin.
4. Keçirdiyiniz iclasa uyğun aşağıdakı protokol nümunəsini doldurun.

**Tədbirin adı : Valideyn iclası**

**Tarix :** “____” “____________” “202___”

**Protokol №______**

**Sədr :** ______________________________
(Vəzifəsi, adı və soy adı)

**Katib:** ______________________________
(Vəzifəsi, adı və soy adı)

**Dəvət olundu:** ______________________________
(Vəzifəsi, adı və soy adı)

**İştrak etdi:** ______________________________
(Vəzifəsi, adı və soy adı)

______________________________
(Vəzifəsi, adı və soy adı)

______________________________
(Vəzifəsi, adı və soy adı)

______________________________
(Vəzifəsi, adı və soy adı) və s.

**Gündəlik məsələ :**

1.______________________________
2.______________________________
3.______________________________
**Açılış:** ______________________________
**I məsələ üzrə eşidildi:** ______________________________
**Məsələyə dair çıxış etdi:** ______________________________
**Təkliflər:** ______________________________
**Qərar:** ______________________________

**II məsələ üzrə eşidildi:** ______________________________
**Məsələyə dair çıxış etdi:** ______________________________
**Təkliflər:** ______________________________
**Qərar:** ______________________________
**III məsələ üzrə eşidildi:** ______________________________
**Məsələyə dair çıxış etdi:** ______________________________
**Təkliflər:** ______________________________
**Qərar:** ______________________________

**Sədr :** ______________________________
(Vəzifəsi , adı və soy adı)

**Katib :** ______________________________
(Vəzifəsi , adı və soy adı)

[5] Qeyd: bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır. Şagirdlər dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər yenidən nömrələnir.Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır. Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir. Ekspert qrupları onlara verilən hissəni oxumalı və məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır. Müəllim informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verə bilər.

5. “Valideynlə əməkdaşlıq yolları” mövzusunda fərdi tədqiqat aparın və nəticələr barədə təqdimat edin.
6. “Valideyn iclaslarının keçirilməsi və nəticələrin çıxarılması” mövzusunda esse yazın.

## Qiymətləndirmə

Öyrənmə prosesinə bağlı olan qiymətləndirmə meyarı:

**Ailə üzvlərini tədris prosesinə cəlb etmək üçün formal və qeyri-formal metodlardan istifadə edilir.**

1. Valideyn iclasının keçirilmə qaydalarını sadalayın: ______________________________

____________________________________________________________________________

____________________________________________________________________________

2. Ssenarinin hazırlanması və iclasın keçirilməsində nəzərə alınan 5 vacib komponenti seç:

1. Uşaqların nailiyyətlərinin təhlili.
2. Valideynlərin qrupdakı sosial və emosional iqlim vəziyyəti ilə tanışlığı.
3. Tərbiyəçi uşaq və ya valideynin mənfi qiymətləndirmələrindən qaçınmaq üçün son dərəcə həssas olmalıdır.
4. Tematik planın hazırlanması.
5. Müəllim tərəfindən informasiyanın dəqiq verilməsi.
6. Təşkilatı məsələlərin müzakirəsi.
7. Valideynlərin psixo-pedaqoji bacarıqlarının artırılması

A) 1, 2, 3, 6, 7;
B) 1, 2, 3, 4, 5;
C) 3, 4, 5, 6, 7.

3. Valideynlərlə münasibətləri şərtləndirən əsas terminlərdən ibarət lüğət tərtib edin:

____________________________________________________________________________

____________________________________________________________________________

## 1.4. Resursların hazırlanması üçün ailələrdən səmərəli istifadə edir

### Valideyn guşəsinin məzmunu

Təhsil prosesinin müvəffəqiyyəti müəllimlərin və valideynlərin işinin uyğunluq dərəcəsindən asılıdır. Bu informasiya, təcrübə mübadiləsi, maraqlı yolların axtarışı, həmçinin uşaqların təhsil fəaliyyəti nəticələri ilə məlumatlandırılması çox vacibdir. Əməkdaşlığın bütün bu tərəfləri valideynlər üçün guşədə (Şəkil 1.19) öz əksini tapır. Burda müəllimin vəzifəsi - guşəni metodiki cəhətdən savadlı və estetik tərtib etməkdir.



**Şəkil 1.19. Valideyn guşəsi**

Hər bir pedaqoji işçi üçün uşağın valideynləri ilə əlaqə çox vacibdir. Yaxşı hazırlanmış valideyn guşəsi isə valideynlərlə əlaqə saxlamağa əla imkan verir. Validеynlər üçün guşə hər bir qrupun qəbul otağında yerləşir. Tərbiyəçilər onun üçün divarlardan birini, xüsusi stend və ya rəf ayırırlar.

Validеyn guşəsində nümayiş etdirilən informasiyanın köməyi ilə onlar öz uşaqlarının uğurlarını görə bilər, onlarla hansı məşğuliyyətlərin və digər hadisələrin keçirilməsi haqqında daha çox məlumat əldə edə, hətta tərbiyə etmək üçün düzgün məsləhətlər oxuya bilərlər. . Onların sayəsində valideynlər uşaqlarına daha çox diqqətlə yanaşır və onların uğurlarını izləyir, hətta müəllimlərin əməyinə daha hörmətlə yanaşmağa başlayırlar.

Validеyn guşələrinin yaradılma məqsədləri:

- Ailə maraqlarının oyanması (planlaşdırılan ekskursiyalar, yaradıcı layihələr və s.);
- Uşaqların təhsili, inkişafı və tərbiyəsi üzrə işlərin nəticələrinin nümayiş etdirilməsi (foto, uşaqların rəsmləri, əl işləri, o cümlədən valideynlərlə yerinə yetirilmiş işlər və s.);
- Valideynlərə aid olan normativ sənədlərlə tanışlıq (uşaq hüquqları haqqında məlumat, valideynlərin hüquq və vəzifələri, məktəbəqədər müəssisənin Nizamnaməsi və s.).

Validеynlər üçün materialın tərtibinə dair tələblər:

- Validеynlər üçün stenddə yerləşdirilmiş məlumat dinamik olmalıdır. Hər iki həftədə ən azı bir dəfə material yenilənməlidir. Validеyn guşəsi məlumatın qəbul edilməsi (oxuması) üçün əlçatan və rahat olmalıdır, informativ (informasiyanın yerləşdirilməsinə uyğunlaşdırılmış, mənalı, estetik və rəngli) bəzədilməlidir.
- Stendlərdə yerləşdirilmiş məlumatlar aktual, düzgün olmalı və uşaqların yaş xüsusiyyətləri nəzərə alınmaqla tövsiyələr və məsləhətlər verilməlidir.
- Mətnin ölçüsü böyük (14-16), aydın, və həcmli olmamalıdır.
- Məqalələr valideynlər üçün anlaşılan dildə yazılmalıdır.
- Stenddə istənilən çap materialı yerləşdirilərkən, müəlliflik, nəşr ili, nəşri nəzərdə

tutan yer istinad olmalıdır. Stend rəngarəng olmalı, tərtibat zamanı yalnız yazılar deyil, həm də plakat və fotoşəkillərdən istifadə edilməlidir. Stendin tərtibatında dekorativ elementlərdən və oyuncaqlardan sui-istifadə etmək məqsədəuyğun deyil.

- Qovluqlardakı mətn və illüstrasiyaların nisbəti təxminən 2:6 (mətnin 2 hissəsi və illüstrasiyaların 6 hissəsi) olmalı, valideynlərin diqqətini cəlb etməlidir. Qrupdakı uşaqların fotoşəkilləri də olarsa yaxşı olar.

Vizual məlumatların müasir formaları:

Tematik ekranlar və hərəkət qovluqları (pedaqoji mövzulardan başqa, "Uşaqla evdə istirahət", "Bizim ənənələrimiz" (qrupda və ailədə) və s. kimi rubrikalardan istifadə etmək olar;

- İnformasiya vərəqləri;
- Bukletlər;
- Valideynlər üçün jurnal və qəzet;
- Poçt qutusu;
- Audio yazıların istifadəsi;
- Sərgilər.

Guşənin məzmununa dair tələblər:

- Qrupun vizit kartı.
- Uşaqların tərbiyə və təhsil rejimi, proqram vəzifələri, proqramın mənimsənilməsinin planlaşdırılmış nəticələri, mütəşəkkil təhsil fəaliyyətinin planlaşdırılması, məşğələ şəbəkəsi, tematik həftənin məzmunu haqqında məlumat (həftənin adı, məqsəd, işin məzmunu).
- Qrupda uşaqların yaş xüsusiyyətləri haqqında məlumat (uşaqların antropometrik məlumatlarını ilin ortalarından sonuna qədər nə edə biləcəyini göstərə bilərik).

"Bizim gündəlik həyatımız" bölməsi keçmiş gün haqqında materiallar, rəsmlər, əl işləri, mövzular, dərslərin məqsədini təqdim edir. Material daim yenilənir. Valideyn guşəsi uşaq işlərindən ibarət sərginin təşkili üçün təchiz olunmalıdır (Şəkil 1.20).



**Şəkil 1.20. Uşaqların əl işlərinin sərgisi**

**Məlumat lövhəsi** - yalnız rəsmi məlumatlar yerləşdirilir:

- Valideyn bayram dəvətləri, müsabiqələrdə iştirak və s.;
- Menyu (tam şəkildə);
- Qrupda çalışan mütəxəssislərin səhifələri: dövr mövzusu, əlçatan formada məlumat-məsləhət materialları və valideynlər üçün rəngarəng şəkildə tərtib edilmiş məsləhətlər və s.. Valideyn guşəsində məcburi məzmun: şagirdlərin sağlamlığının

qorunması və möhkəmləndirilməsi barədə məlumatlar, məsləhətlər və s.

- "Əyləncə, asudə fəaliyyət" - müxtəlif tədbirlərdən fotoreportajlar, bayramlara hazırlıq üzrə tövsiyələr (şer, musiqi repertuarının öyrədilməsi, kostyumların hazırlanması) – musiqi rəhbərinin iş sahəsi (Şəkil 1.21).



**Şəkil 1.21. Əyləncəli oyunlar**

- Valideynlərə ailədə təhsil fəaliyyətinə dair tövsiyələr: valideynlərə tematik həftə çərçivəsində ailədəki təhsil fəaliyyəti haqqında əlçatan formada təsvir (həftəlik məlumatı yeniləmək şərti ilə).
- Valideynlərin məktəbəqədər müəssisənin həyatında iştirakı, «xeyirxah işlərin mənzərəsi».

Digər materialları müəllimlər müstəqil və perspektiv planlaşdırmaya uyğun olaraq müəyyən edir.

Bütün tədris ili üçün valideyn güşəsində olan materiallar:

- Qrupa qatılan uşaqların yaş səviyyəsinin xüsusiyyətləri;
- Gün rejimi (Şəkil 1.22); Məşğələ cədvəli;
- Daxili intizam qaydaları;
- Pedaqoji proses




**Şəkil 1.22. Gün rejimi**

Müvəqqəti materiallar:

- Elan lövhəsi;
- Sərgilər;
- Tədbirlər və bayramlar (Şəkil 1.23);
- Müsabiqələr (Şəkil 1.24).



**Şəkil 1.23. Bayram**



**Şəkil 1.24. Müsabiqə**

**Mütəxəssislər guşəsi:**

Burada tibb işçisinin, pedaqoq-psixoloqun və loqopedin materialları təqdim edilməlidir:

- Mütəxəssislərin adları, onların qəbul saatları;
- Xəstəliklərin profilaktikası və uşaqların sağlamlaşdırılması üzrə qeydlər (Şəkil 1.25);
- Uşaqların son boy və çəki ölçmələri üçün cədvəllər (Şəkil 1.26 və Şəkil 1.27);



**Şəkil 1.25. Tibb işçisinin lövhəsi**



**Şəkil 1.26. Çəki ölçümü**


**Şəkil 1.27. Boy ölçümü**

- Artikulsiya, gimnastikası üzrə tapşırıqlar;
- Kiçik motor bacarıqlarını, diqqətini, yaddaşını inkişaf etdirmək üçün məsləhətlər.

**Uşaq və valideynlərin əl işlərinin sərgisi** (Şəkil 1.28)

- Material rəsm, modelləşdirmə, applikasiya hər məşğələdən sonra yenilənməlidir;
- Hər bir sərgi məşğələnin mövzusu və məqsədi barədə məlumat verir.


**Şəkil 1.28. Uşaq və valideynlərin əl işlərinin sərgisi**

**Valideyn guşələri üçün əlavə rubrikalar:**

Məlumatlarla yanaşı valideyn guşəsi tərbiyəçilərə uşaq tərbiyəsinin müxtəlif tərəflərini işıqlandırmağa və valideynlər üçün aktual olan sualları cavablandırmağa kömək edən zəruri və maraqlı məlumatları yerləşdirirlər.

Valideynlərin diqqətini cəlb etmək üçün mövzular mütəmadi olaraq yenilənməlidir. Valideynlərə yaradıcı şəkildə verilən məlumatların orijinal olması məqsədəuyğundur.

**Tematik fotosərgilər:**

- Valideyn guşəsini fotosərgilərlə bəzəmək olar. Məsələn, məşğələ, bayram və ekskursiyalardan fotoşəkillər nümayiş oluna bilər. Bundan əlavə, uşaqların bağçadan kənarda dostları ilə vaxt keçirməsinin aşağıda verilən və digər mövzularda ekspozisiyalar ola bilər:“Bizim yay tətili";
- "Baba ilə qış əyləncələri";
- "İstirahət günlərində meşədə".

Fotoşəkillər kiçik hekayələr və maraqlı yazılarla tamamlanmalıdır.

**Validexnlər üçün təşəkkürnamələr** (Şəkil 1.29).

Bu vərəqlər qrupun həyatında fəal iştirak edən, bağçaya yardım edən ata və analara təşəkkür sözlərini ifadə edən, bəzədilmiş mətnlərdir.




**Şəkil 1.29. Valideynlər üçün təşəkkürnamələr**

**Bizdə məşğələdə”** (Şəkil 1.30). Bu bölmədə müəllimlər valideynləri məşğələlərin proqram məzmunu ilə tanış edir, evdə məşğələ materialını təkrar etməyi təklif edirlər: tapmaca, şeir, atalar sözlərinin təkrarlanmasını və s. Burada uşaqlara oxumaq üçün məşğələ mövzusu üzrə ədəbiyyat siyahısı əlavə olunur.

**“Ad gününü təbrik edirik!”** Burada uşaqların doğum gününün fotoşəkilləri, təbriklər və açıqçalar yerləşdirilir. Bu rubrik uşağın təbrik edilməli olduğunu bilməyə vaxtında kömək edir və səbəbkarın şənliyinə sevinc əlavə edir (Şəkil 1.31).




**Şəkil 1.30. “Ev tapşırığı”**




**Şəkil 1.31. "Ad günün mübarək!" rubrikası**

Uşaq bağçasında valideyn guşəsinin tərtibatı çoxşaxəli fəaliyyətdir. Onun məzmunu daim yenilənməli və dəyişdirilməlidir. Guşəni doldurarkən onun sensor yüklənməsinin yolverilməzliyini nəzərə almaq lazımdır. Əks halda, valideynlər maraqlarını tez itirəcəklər.

## Tələbələr üçün fəaliyyətlər

1. Valideyn guşəsinin layihəsini hazırlayın.[6]
2. Guşənin məzmununa dair tələblər barədə esse yazın.
3. Valideyn guşəsinin yaradılama məqsədlərini təhlil edin.

Qrup 1: Ailə maraqlarının oyanması (planlaşdırılan ekskursiyalar, yaradıcı layihələr və s.);

Qrup 2: Uşaqların təhsili, inkişafı və tərbiyəsi üzrə işlərin nəticələrinin nümayiş etdirilməsi (foto, uşaqların rəsmləri, əl işləri, o cümlədən valideynlərlə yerinə yetirilmiş işlər və s.);

Qrup 3: Valideynlərə aid olan normativ sənədlərlə tanışlıq (uşaq hüquqları haqqında məlumat, valideynlərin hüquq və vəzifələri, məktəbəqədər müəssisənin Nizamnaməsi və s.).

[6] Qeyd : Tapşırıq 4 qrup üçün eyni verilir. Nəticələr müqayisə edilir.

## Qiymətləndirmə

1. Vizual məlumatların müasir formalarını seçin:

a) Tematik ekranlar;
b) Hərəkət qovluqları;
c) İnformasiya vərəqləri;
d) Bukletlər;
e) Məktublar;
ç) Valideynlər üçün jurnal və qəzet;
f) Poçt qutusu;
s) Şikayətlər;
m) Audio yazıların istifadəsi;
g) Sərgilər.

A) a, b, c, d, ç, f;
B) a, b, c, d, e, ç;
C) c, d, ç, f, m, g.

2. Validevnlər üçün materialın tərtibinə dair tələblər hansılardır:

1. Valideynlər üçün stenddə yerləşdirilmiş məlumat dinamik olmalıdır.
2. Stendlərdə yerləşdirilmiş məlumatlar aktual, düzgün olmalı.
3. Məqalələr valideynlər üçün anlaşılan dildə yazılmalıdır.
4. Ailə maraqlarının oyanması.
5. Uşaqların təhsili, inkişafı və tərbiyəsi üzrə işlərin nəticələrinin nümayiş etdirilməsi.

A) 1, 2, 3;
B) 2, 3, 4;
C) 3, 4, 5;
D) 1, 4, 5;

## 1.5 Ev şəraitində inkişafetdirici mühitin yaradılmasını təmin etmək üçün ailə üzvlərinə faydalı məlumat və təkliflər verir

### Ev şəraitində inkişafetdirici mühitinin təşkili

Evdə inkişafetdirici mühitin təşkil edilməsi valideynlərin öhdəsinə düşür. Uşaqların uğurlu öyrədilməsi, inkişafı və təhsili üçün lazımi şərait necə yaradılmalıdır?

Bir çox valideynlər üçün ailə tərbiyəsi, xüsusilə məktəbəqədər uşaq üçün daha təbii görünür, buna görə də uşaqların kifayət qədər böyük faizi bu və ya digər səbəbdən məktəbəqədər uşaq müəssisələrinə getmirlər. Uşaq adi ev şəraitində böyüyür, adət edilmiş rejimə riayət edir. Ailənin vəzifəsi uşağın yaradıcılıqla inkişaf etməsinə, dil öyrənməsinə, idrak və kommunikativ tələbatlarını reallaşdırmasına imkan verəcək sosial-mədəni, əşya-məkan inkişafetdirici mühitini modelləşdirməkdir.

Uşağın intellektual, əxlaqi, estetik inkişafı onun ətraf mühitindən asılıdır. Buna görə də ailə şəraitində məktəbəqədər yaşlı uşaq üçün savadlı inkişaf mühiti yaratmaq vacibdir. Uşaq mənzilin bütün məkanını mənimsəməlidir, eyni zamanda onun psixofizioloji xüsusiyyətləri və imkanları nəzərə alınmaqla təchiz edilmiş məkanı olmalıdır (Şəkil 1.32).



**Şəkil 1.32. Uşaq otaqları**

Ailədə əşyavi mühit uşağa idrakın və dünyaya münasibətin dəyərlərini valideynlərin köməyi ilə deyil, həm də müstəqil şəkildə formalaşdırmağa imkan verir. Ailə şəraitində buna necə nail olmaq olar? Ailəyə inkişafetdirici mühitin yaradılmasını çətinləşdirən bir sıra səbəblər var. Məsələn, ailənin maddi imkanının aşağı olması, mənzillərin kiçik ölçüdə olması, otağın dizaynı barədə ailənin biliklərinin olmaması mühitin yaradılmasını çətinləşdirən səbəblərdəndir. Mühiti uşağın yaradıcı fəaliyyəti və müstəqil düşünməsi üçün yaratmaq lazımdır.

Ətraf mühit təkrarlanan olmamalı, otaq işıqlı olmalı və mərkəzlər düzgün şəkildə birləşdirilməlidir. Beləliklə, valideynlərə evdə inkişafetdirici mühitinin qurulması üçün bəzi şərtləri nəzərə almaq lazımdır:

- Oyun və oyuncaqlar otağın müxəlif yerlərində yerləşdirilə bilər. Məzmunu mütəmadi olaraq dəyişdirilməlidir.Bu oyuncaqların atılması demək deyil. Evdə oyuncaqlar üçün "saxlanma otağı" yaradılmalıdır və orada uşağın çox oynadığı oyuncaqlar saxlanılmalıdır. Müəyyən zaman keçdikdən sonra uşaq tərəfindən bir az unudulmuş oyuncaqları saxlama otağından çıxartmaq olar.

- Uşağın yaş xüsusiyyətləri və ehtiyacları nəzərə alınmalıdır.
- Əşyalar, materiallar, parçalar, köhnə paltarlar, çantalar və müxtəlif kostyumlar və digər detalların saxlanılması üçün "sandıq" hazırlanmalıdır.
- Bütün oyun materialları bir yerdə cəmləşdirilməməlidir, uşaq üçün aktiv axtarış vəziyyəti yaradılmalıdır.
- Otaqda istirahət üçün istifadə olunan yumşaq yastıqlarla podium yaratmaq maraqlı olar.
- Uşaq üçün güzgü yerləşdirilməlidir (ideal yer dəhlizdir). Mənzildən çıxarkən, uşaq özünü qaydaya salmağı öyrənir, lazım olduqda, öz xarici görünüşündə nəsə dəyişiklik edir. Uşaqda xarici görünüş mədəniyyəti, əməksevərlik, müstəqillik keyfiyyəti formalaşmağa başlayır. Uşağın paltarları dolabda saxlanmalıdır.
- Uşaq işləri üçün yer təşkil edilməlidir .
- "Uşaq laboratoriyası" təşkil edilməlidir. Bir qutuya maqnit, böyüdücü şüşə, mikrofon, kompas toplamaq olar. Laboratoriyanı təşkil edərək, tədricən yeni əşyalar daxil edilməli, onlar haqqında məlumat verilməlidir. Uşağın cinsindən asılı olaraq "bacarıqlı əllər" guşəsi təşkil edilə bilər. Tullantı materiallar məsələn: tıxaclar, plastik qab, təbiətdən isə qozalar, tumlar toplamaq olar.
- ***"Evinizdə kitablar*" -** valideynlər evdə sevdiyi kitabların saxlanması üçün rəf yarada bilər. Uşaqla birlikdə kitablara baxılsa, daha sonra uşaq özü də kitablarla maraqlanmağa başlayacaq.
- **"*Həyatımın lenti" -*** uşağın ailə fotoşəkilləri (hətta yaxın ailənin) qarşısında olmağı çox yaxşıdır.
- **"*İdman guşəsinin təşkili" -*** sevimli idman oyuncaqları ilə hər zaman oynamaq imkanı olmalıdır. Bütün valideynlər uşaqların sağlamlığını qorumaq və gücləndirmək istəyir. Bunun üçün evdə idman küncü olsa, bu daha asan olacaq. Uşağa öz enerjisini müsbət istiqamətdə həyata keçirmə imkanı vermək vacibdir. Uşaq hiperaktiv olduqda idmanla məşğul olmaq xüsusilə vacibdir. Yalnız bu halda fiziki yüklənmə həddindən artıq gərginliyi atmağa və digər məşğələlərə diqqət yetirməyə imkan verəcək.
- **"*Sakitlik"*** guşəsi yaradılmalıdır, orada sakitləşməyə, istirahət etməyə imkan verən əşyalar və oyuncaqlar olmalıdır.
- Yaradıcı qabiliyyətlərin inkişafı üçün qələmlər, flomasterlər, quaşlar, plastilinlər, yapışqanlar, uşaqlar üçün rahat olan yerdə fırçalar yerləşdirilməlidir ki, istənilən vaxt lazımi fəaliyyətlə məşğul ola bilsin.
- Mühiti qurarkən **gender** xüsusiyyətləri nəzərə alınmalıdır, mühit həm qızlar, həm də oğlanlar üçün ümumi və xüsusi materiallarla doldurulmalıdır. Qızlar üçün müxtəlif gəlincik, beşik, oğlanlar üçün isə maşın, tapança və s. qoymaq olar. Ümumi olaraq konstruktor və inkişafetdirici oyuncaqlar qoyula bilər. .

- Oyuncaq alınarkən, sertifikata, materialların təhlükəsizliyinə, oyuncağın inkişaf potensialına diqqət yetirilməlidir.
- Əgər uşaq rəqəmlərə, hərflərə maraq göstərirsə, onu maqnit lövhəsi, rəqəm, hərf, xətkeş dəsti ilə təmin etmək lazımdır.
- Uşaq üçün mühit yaratmaq yaradıcılıq prosesidir. Bu prosesdə iki tərəf - valideyn və uşaqlar iştirak etməlidir.

## Tələbələr üçün fəaliyyətlər

1. Verilmiş uşaq otağı sxemində uşaq üçün əlverişli mühit qurun:

2. "Qərarlar ağacı" üsulunun[7] köməyi ilə evdə uşaq üçün əlverişli mühitin yaradılmasının əsas şərtlərini müəyyən edin. Cədvəl üzrə işləyin.

| **Problem:** | | | |
|---|---|---|---|
| Problemin həlli yollarının mənfi və müsbət tərəfləri | **Problemin həlli yolları** | | |
| | **1-ci həll yolu** | **2-ci həll yolu** | **3-cü həll yolu** |
| **+** | | | |
| **-** | | | |
| **Qərar:** | | | |

3. Öz otağınız haqqında müqayisəli esse yazın.

7 Bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır. Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilir. 4-6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onları "+", və ya "-" işarəsi ilə müvafiq qaydada qeyd edir. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür. Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

## Qiymətləndirmə

1. Uşaq otağının layihəsini işləyin və şifahi təqdimat edin.
   Perfokartlarla iş:

   Perfokart 1 :
   a) İşığı düzgun düzməsi üçün pəncərənin yerləşməsini müəyyən edin.

   Perfokart 2 :
   b) Əşyavi mühit qurun.

   Perfokart 3 :
   c) Saxlama mühiti yaradın.

2. Yşaq otağının yaradılması üçün zəruri elementləri qeyd edin

| Element | Məqsəd |
|---|---|
| | |

3. Aşağıdakı güşələr haqqında gözləntiləri və resursları cədvəl üzrə yazın.

| | Gözləntilər | Resurslar |
|---|---|---|
| **Sakitlik** | -<br>-<br>- | -<br>-<br>- |
| **İdman güşəsini təşkili** | -<br>-<br>- | -<br>-<br>- |
| **Həyatımın lenti** | | |
| **Evinizdə kitablar** | | |

# CAVABLAR

| **Təlim nəticəsi 1 üzrə düzgün cavablar** | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 6 | A |
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 2 | B |
| Sual 3 | B |
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 2 | B |
| Qiymətləndirmə meyarı 4 | |
| Sual 1 | C |
| Sual 2 | A |

# ƏDƏBİYYAT SİYAHISI

1. Ağayev Ə., Talıbov Y., Eminov A., İsayev İ. Pedaqogika. Bakı: Adiloğlu, 2006
2. Ailə tərbiyəsi Baki 1970 , M.Muradxanov – Məktəblilərin ailədə tərbiyəsi Bakı 1972;
3. V.A.Suxomlinski – Vətəndaşın doğulması Bakı 1975,
4. V.A.Suxomlinski – Ürəyimi uşaqlara verirəm Bakı, 1979;
5. N.Kaımov – Tərbiyənin elmi – pedaqoji əsasları B.1981;
6. N.Xəlilov – Ailə tərbiyəsinin bəzi məsələləri B.1988;
7. Ə.Ə.Əlizadə və A.N.Abbasov – Ailə (dərslik) B.1986
8. A.N.Abbasov ,Milli əxlaq və ailə etikası. Bakı: ADPU, 2008
9. A.N.Abbasov , Milli əxlaq və ailə etikası: universitetlərin magistratura səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, 2013

1. Арнаутова Е.П. В гостях у директора: Беседы с руководителем дошкольного учреждения о сотрудничестве с семьей. – М.: Логос, 2010.
2. Доронова Т.Н., Соловьева Е.В., Жичкина А.Е. Дошкольное учреждение и семья – единое пространство детского развития:
3. методическое руководство для работников ДОУ. – М.: Сфера, 2001.
4. Евдокимова Е.С. Педагогическая поддержка семьи в воспитании дошкольника.
5. Зверева О.Л., Кротова Т.В. Родительские собрания в ДОУ: методическое пособие / Айрис-Пресс, 2007.
6. Зверева О.Л., Кротова Т.В. Общение педагога с родителями в ДОУ: методический аспект. – М.: Сфера, 2005 год
7. Микляева Н.В. Создание условий эффективного взаимодействия с семьей. Айрис-Пресс, 2006 г.
8. Свирская Л. Работа с семьей: необязательные инструкции: методическое пособие для работников ДОУ. Линка-Пресс, 2007 г.
9. Иванова Т. Н., Чикишева С. Ю. Роль родителей в обучении детей в условиях этой трансформации: (эмпирический опыт) // Научно-методический электронный журнал «Концепт». – 2016. – Т. 38. – С. 148–155. – URL: http://e-koncept.ru/2016/56886.htm.
10. Bloom B.S., Max D.Engelhart, Edvard J.Furst., Walker H.Hill., David R. Krathwohl "Taxonomy of educational objectives. The classification of educational goals. Handbook I: Cognitive domain. New York: David McKay 1956. 370 p. və s.
11. http:www.elibrary.az/cgi/irbis64r_71_az/cgiirbis_64.exe

12. www.azerpaint.aznet.org
13. www.azeribooks.aznet.org
14. www.kitabxana.org
15. www.tehsil.20m.com
16. www.t.q.d.k.gov.az
17. www.top.az
18. https://www.time4learning.com/scope-sequence/kindergarten_science.shtml
19. https://www.scholastic.com/parents/school-success/school-life/grade-by-grade/what-kindergarten-teachers-wish-parents-knew.html